# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 83 (3407) Cümə axşamı / 28 oktyabr - 3 noyabr 2021-ci il Qiymәti 40 qәpik


# Pensiya Fonduna yığılan vəsaitlər

*Son vaxtlar cəmiyyətdə vətəndaşların Dövlət Sosial Müdafiə Fonduna toplanmış vəsaitlərinin taleyi tez-tez müzakirə olunur. bu gün Azərbaycan MDB ölkələri üzrə pensiya yaşına görə öndə gedən ölkələrdən sayılır. Nəticə etibarilə hər il ölkəmizdə minlərlə insan pensiya almadan dünyasını dəyişir. Məsələn, Dövlət Statistika Komitəsinin açıqladığı statistik rəqəmlərə görə, bir il ərzində ölkəmizdə 65 yaşdan daha tez dünyasını dəyişənlərin sayı 22 min 911 nəfərdir. Son açıqlanan statistikaya görə, 33 min nəfər 64 yaşdan sonra dünyasını dəyişir. Onların əməkhaqqından və ya digər gəlirlərindən tutulan vəsaitlər isə əksər hallarda vərəsələrinə verilmir, Fondun büdcəsində qalır. Halbuki çox ölkələrdə tam əksinədir. Vəfat etmiş vətəndaşın həm pensiyası vərəsələrinə verilir, həm də vətəndaş pensiya yaşını doldurmadan pensiyaya çıxmaq hüququna malik olur. Bu vətəndaşın aidiyyəti qurumlara yazılı müraciəti əsasında baş verir. Eyni zamanda, pensiya yaşına çatmış vətəndaş yığımları birdəfəlik ödəmə formasında da ala bilir. Qeyd edək ki, postsovet məkanına aid olan ölkələrin əksəriyyətində orta ömür uzunluğu 70 yaşın ətrafında və üstündə, pensiya yaşı isə daha çox hallarda kişilər üçün 63, qadınlar üçün isə 60-dır. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə isə Azərbaycanda orta ömür 71,4 yaşdır ki, bu göstəriciyə görə ölkəmiz dünyanın 183 ölkəsi arasında 114-cü yeri tutur.*



## Vətəndaş birdəfəlik ala bilərmi?

“

*Mükəmməl pensiya sistemi, vətəndaşların pensiya hüququ əldə etməyən, pensiya yaşına qədər yaşamayan vətəndaşların yığımlarının onların varislərinə ötürülməsinə, eyni zamanda pensiya əlçatanlığını təmin edir*

Pensiyada 65 və ondan yüksək yaş həddi əsasən orta ömür uzunluğu 80 yaşdan yuxarı, eləcə də demoqrafik qocalma göstəricisi çox olan ölkələrdə götürülür. Məsələn, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) göstəricisindən (80 yaş) yüksək həddə malik İsveçdə orta ömür uzunluğu kişilərdə 82, qadınlarda 84 yaş olsa da, hər ikisinin pensiya yaşı 62 götürülüb. Yaşı 65 və ondan yuxarı olan əhali Yaponiyada -27 faiz, İtaliyada-23 faiz, Almaniyada-25,5 faizdir.

Ona görə də belə ölkələrdə pensiya yaşı da yüksəkdir. Yaşı 65 və ondan yuxarı olan pensiyaçı Azərbaycan əhalisinin 7 faizini təşkil edir. Rəsmi statistikaya görə, son 15 ildə Azərbaycanda orta ömür 2 il artaraq 73,4-dən 75,8 yaşa yüksəlib. Kişilərdə 70,8-dən 73,3 yaşa, qadınlarda 76,1 yaşdan 78 yaşa qədər artıb. Bir sözlə, Azərbaycanda pensiya sistemi elə qurulub ki, pensiya yaşlı nəslin bir hissəsi üçün əlçatan deyil. Bəs, görəsən, mövcud qanunvericiliyə əsasən, vəfat etmiş şəxsin vərəsələri onun pensiyasını hansı halda ala bilər? Bununla bağlı konkret mexanizm mövcuddurmu? Pensiyaçının fonda toplanmış vəsaiti birdəfəlik ödəmə şəklində əldə etmək hüququ varmı?

### Qanunda varislik məqamı təsbit olunur, amma...

■ **Mövzunu hafta.az-a şərh edən iqtisadçı-ekspert Rəşad Həsənov bildirib ki, “Əmək pensiyaları haqqında” qanuna uyğun olaraq fərdi sığorta hesabına toplanmış vəsaitin yalnız yığım hissəsinin varislik hüququ var:**

“2017-ci ildə “Əmək pensiyaları haqqında” qanuna dəyişiklik ediləndə, varislik məqamını özündə ehtiva etdi. Çox təəssüf ki, qanunda fərdi hesabın yalnız yığım hissəsindəki vəsaitlərin varisliyi məsələsi əksini tapdı. Yəni olmayan bir hesab. Amma sığorta şirkətində toplanan vəsaitlərin ötürülməsi məsələsi həll olunmadır. Bu, doğru yanaşma deyil, bu məsələ tezliklə həll olunmalıdır. Bildiyiniz kimi, yığım iki hissədən ibarət olur. Birincisi, icbari yığım. O, faktiki olaraq müəyyən edilmiş faizlər çərçivəsində əməkhaqqı fonduna 25 faiz hesablanma ilə tutulur. İkincisi isə, vətəndaşın könüllü yığımıdır. Könüllü yığım olan hissəsində toplanmış vəsaitlərin irsən ötürülməsi nəzərdə tutulur. Lakin praktikada belə vəsait yoxdur. Əslində mükəmməl pensiya sistemi, vətəndaşların pensiya hüququ əldə etməyən, pensiya yaşına qədər yaşamayan vətəndaşların yığımlarının onların varislərinə ötürülməsinə, eyni zamanda pensiya əlçatanlığını təmin edir. Təəssüf ki, Azərbaycanda vəziyyət nisbətən fərqlidir. Əsas prioritet Dövlət Sosial Müdafiə Fondunun (DSMF) gəlirləri və xərclərinin optimallaşdırılmasıdır. DSMF Azərbaycanda dövlət büdcəsinə verilən dotasiya hesabına öz xərclər üzrə öhdəliklərini yerinə yetirə bilir. Hər il təxminən orta hesabla 1.5 - 1.6 milyard manat dövlət büdcəsindən pensiya fonduna pul ayrılır. 2020-ci ilə qədər bu göstərici 38 faiz ətrafında idi. Bu xərclər büdcə hesabına ödənilirdi. Təbii ki, bunun fundamental səbəbləri var idi.

“

*Bəzi ölkələrdə tətbiq edilən sözügedən mexanizm əsasən pensiya kapitalına deyil, peşə birliklərinə ödənilmiş sığorta vəsaitlərinin birdəfəlik alınmasına aid olur*

Bu o demək deyildi ki, toplanmış vəsaitlər dünyasını dəyişmiş pensiyaçıların varislərinə verilməsin. Problemin həll yolu əslində əmək bazarının leqallaşdırılmasıdır. Əmək bazarının qanuniləşdirilməsi pensiya sisteminə daxil olmaları əhəmiyyətli səviyyədə, təxminən, 3.5 dəfə artıra bilər. Bu isə mövcud olan problemləri tam aradan qaldıra bilər. Amma bizdə bunun daha asan variantına əl atırlar, mümkün qədər pensiya təminatı sistemində əlçatanlığı aşağı salırlar.

▸▸ Səh. 4

MÜSAHİB

## Putinin bəyanatlarını Rusiyanın böyük lütfü kimi qəbul edirik



**Arif Paşa,**
keçmiş Laçın alayının komandiri, istefada olan polkovnik

***Keçmiş Laçın alayının komandiri, istefada olan polkovnik Arif Paşa ilə hafta.az üçün növbəti söhbətimizdə Rusiyanın sülhməramlı sayılan hərbi kontingentinin Laçın dəhlizi və Qarabağ torpaqlarındakı fəaliyyəti, “dəmir yumruğ”un hələ tam əzmədiyi Ermənistanın iddialarına qarşı bundan sonrakı mübarizə yolları və s. haqda fikir mübadiləsi apardıq.***

*Demarkasiya və delimitasiya 1918-1920-ci illərin xəritələri əsasında aparılmalıdır...*

▸▸ Səh. 3

XÜSUSİ MÜXBİR



**Xatirə Sərdarqızı,**
“Real TV”nin Avropa bürosunun rəhbəri, jurnalist və ictimai fəal

“

■ Ümumiyyətlə, soydaşlarımızın Niderland polisinin yanında çox yaxşı etimadı var...

■ Əgər kanalınız sizi dəstəkləyirsə, bu zaman bütün proses asan olur...

■ Bəzi azərbaycanlılar deyirdi ki, iş yerindəki ermənilər müharibədən əvvəl hər içəri daxil olanda bizə yuxarıdan-aşağı baxırdılar...

▸▸ Səh. 6

GÜNÜN FOTOSU...




**Hərbçilərimizin Türkiyədə təlimləri başa çatıb...**

GÜNÜN SİTATI

“

*Zəngəzur dəhlizinin açılacağına səy göstərilir və bütün bu proseslər Türkiyəyə də öz təsirini mütləq göstərəcək*

”



**Rəcəb Tayyib Ərdoğan,**
Türkiyə Prezidenti

KARİKATURA




**Üçüncü doza çağırışları...**

“

## Türkiyə Qafqazdadır!

**Fikrət Sadıqov,**
politoloq

Türkiyə bir çox məsələlərdə, o cümlədən təhlükəsizlik, sabitliyin qorunması, yarana biləcək təhlükələrdə Azərbaycanın yanında olacaq...

▸▸ Səh. 2

STATİSTİKA



■ **2020-ci ildə endokrin sistem xəstəlikləri ilə 18 yaşadək qeydə alınmış uşaqların sayı 10 972 olub.**

2010-cu ildə uşaqlar arasında həzm sistemi xəstəlikləri olan 45 732 uşaq qeydə alınıb. 2020-ci ildə bu say 57 592 olub. Onlardan 0-13 yaş arası uşaqların sayı 2010-cu ildə 35 954, 2020-ci ildə 42 490 nəfər təşkil edib. Son 10 ildə 13 yaşadək uşaqlar arasında mədə-bağırsaq xəstəlikləri artıb.



▸▸ Səh. 7

## Bakıda dini bayraqlarla yürüşün pərdəarxası

# Ərdoğan İlham Əliyevlə danışıqların detallarını açıqladı



**Dünən Füzuli və Zəngilana səfərindən sonra Türkiyəyə qayıdan Prezident Rəcəb Tayyib Ərdoğan təyyarədə onu müşayiət edən jurnalistlərin suallarını cavablandırıb.**

Hafta.az-ın yazdığına görə, cənab Ərdoğan bildirib ki, hazırda bölgdə böyük dəyişikliklər yaşanır, Füzuli hava limanı açıldı, yollar tikilib və tikilir, infrastruktur yaradılır, şəhərlər, qəsəbələr salınır və sair.

Bütün bu proseslərdə Türkiyənin də böyük töhfələri var. İndi isə Zəngəzur dəhlizinin açılacağına səy göstərilir və bütün bu proseslər Türkiyəyə də öz təsirini mütləq göstərəcək.

> “
>
> *Türkiyə dövləti olaraq, bu layihələrin tərkib hissəsi olduğumuz üçün qürur duyuruq*

“Qardaş Azərbaycanı son dəfə iyun ayında ziyarət etmişdim. İlham qardaşımla Şuşadan sonra bu dəfə də işğaldan qurtarılmış Füzulidə və Zəngilanda bir araya gəldik. Ziyarətim zamanı işğaldan qurtarılmış torpaqlarda tikinti və yenidənqurma işləri ilə tanış olduq. Bölgədəki iqtisadi potensialın canlandırılması, nəqliyyat infrastrukturunun yenidən qurulması istiqamətində görülən işlər bizi çox sevindirdi. Azərbaycanın uğurlarıyla, ən azından azərbaycanlı qardaşlarımız qədər biz də fəxr edirik. Türkiyə dövləti olaraq, bu layihələrin tərkib hissəsi olduğumuz üçün qürur duyuruq”, - Prezident Ərdoğan deyib.

”Hazırda infrastruktur və əsaslı tikinti işlərində Türkiyə firmaları çox ciddi işlər görür və gələcək layihələrdə də çalışacaqlarını düşünürəm. Buna çox böyük zərurət var. Gördüyünüz kimi, təyyarəmizin endiyi və açılışını etdiyimiz Füzuli hava limanının tikintisində 12 türk şirkəti azərbaycanlı qardaşlarıyla birlikdə iştirak ediblər. Birliyin nəticəsi isə o oldu ki, 8 ay kimi çox qısa müddətdə bu böyük hava limanı tikilərək istifadəyə verilib. Hazıra daha iki hava limanının tikintisi davam edir. Onların da sürətlə tikilərək 1 il ərzində başa çatdırılması və istifadəyə verilməsi planlaşdırılıb”, - deyən dövlət başçısı əlavə edib ki, ağıllı kənd layihələrində də hazırda Türkiyə və Azərbaycan birliyi daxilində ciddi işlər görülməkdədir. Prezident Ərdoğan deyib ki, bununla birlikdə, heyvandarlıq sektorunun yaradılması istiqamətində də iri layihələr reallaşdırılır ki, bunlardan bəzilərini ilə yerindəcə tanış olmaq imkanı əldə ediblər. “Ən əsası odur ki, bir tərəfdən minaların təmizlənməsi işləri aparılır, ərazilər partlayıcılardan təmizlənir və vaxt itirmədən, payız mövsümünün fürsətlərindən istifadə edərək bəzi sahələr əkilir. İstər Azərbaycan, istərsə də Türkiyə şirkətləri hazırda minalardan təmizlənmiş ərazilərdə qazan-qazan prinsipinə əsaslanaraq əkinçilik və maldarlıq sahələrini inkişaf etdirməklə məşuldurlar. Hesab edirəm ki, qısa vaxtda ən azı 5 mindən 10 min başadək anqus növündən hayvanın azad olunmuş ərazilərə gətirilərək heyvandarlıq sektorunda ciddi inkişafa nail olmaq hədəflənib. Bununla da xüsusilə qardaş Azərbaycan dövlətinin xaricdən ət idxalını minimuma endirəcəyimizə inanıram. Bütün bunlar göstərir ki, ən yaxın zamanlarda kənd təsərrüfatında və heyvandarlıqda çox ciddi sıçrayış əldə olunacaq”, - Prezident Rəcəb Tayyib Ərdoğan deyib.

Dövlət başçısı Ermənistanla qalıcı sülh danışıqlarından, İranın bölgədə sərgilədiyi təxribatçı siyasətə də mövqeyini bildirib. Deyib ki, Azərbaycan Prezidenti İlham Əliyevlə bu məsələləri müzakirə edib. “İlham bəy qərarlı və konkret mövqeyə sahibdir və öz mövqeyində qətiyyən güzəştə getməyəcək. O mənə dedi ki, Azərbaycanın İsrailə məsələsində hər hansı güzəştə getməsi kimi bir fikri yoxdur. O dedi ki, Azərbaycan İsraillə bütün sahələrdə əməkdaşlıq edir və edəcək. Digər ölkələrlə münasibətləri necə inkişaf etdirirlərsə, işğaldan azad edilmiş bölgələrdə də eyni şəkildə əlaqələr qurmaqdadırlar. Bu məsələlərdə ölkələr bir-birilərinin qərar mexanizmlərinə təzyiq göstərməməlidir və göstərə də bilməz. İstəyimiz odur ki, İran da burada ağıllı siyasət yürüdərək, hərəkət və davranışlarını ölçübbiçsin. Bu halda İranla Azərbaycan arasında hər hansı problem yaşanmayacaq”, - cənab Ərdoğan bildirib.

Prezident Ərdoğan hazırda dünya mətbuatının gündəmini zəbt edən, 10 səfirin Türkiyənin daxili işlərinə qarışmaq cəhdilə bəyanatla çıxış etməsi məsələsindən də söz açıb. O, səfirlərin son anda geri addım atmalarına sərt reaksiya verən CXP İstanbul millət vəkili olan Ünal Çeviközlə bağlı Azərbaycan prezidenti İlham Əliyevlə aralarında olan söhbətdən sitat gətirib. “Bunlardan biri də keçmişdə Bakıda səfir olub, indi CXP-nin siyasətçisidir. İlham qardaşımla danışanda o belə “Mən bu adamı bir də qapımdan içəri buraxmaram”, - dedi. Çünki Azərbaycana da xəyanət edib. Sən öncə səfir olduğun ölkənin siyasətinə sayğılı olmağı öyrən”, - dövlət başçısı qeyd edib.

Bu arada, suallara əsasən, Prezident Ərdoğan Füzuli səfərindən qısa vaxt sonra Romada və ardıyla Qlazqoda ABŞ prezidenti ilə keçirəcəyi görüşlərə də toxunub. Bildirib ki, bu səfərlərin gündəliklərində dəyişikliklərin olacağı qaçılmazdır. Çox güman ki, Baydenlə Romada deyil, Qlazqoda görüşəcək. Nədən danışacaqlar - çox məsələ var gündəlikdə, əlbəttə ki, ən vaciblərindən biri də “F-35” və Ankara tərəfindən ödənilmiş 1,4 milyard dolların geri qaytarılması məsələsidir.

✍ *Vüsal*

HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

Təsisçi və
baş redaktor:
Sevinc Seyidova

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), “Həftə içi”nin kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.

Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000

“Həftə içi” nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Türkiyə Qafqazdadır!





## Gündəm

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Füzuli Beynəlxalq Hava Limanının açılışında iştirak etmək üçün bu gün Azərbaycana gəldi. Azərbaycanın işğaldan azad edilmiş Füzuli rayonundakı ilk Hava Limanının açılışına qatıldı. Zəngəzur dəhlizinin təməli qoyuldu. Noyabrın 8-9-da isə Azərbaycan prezidenti İlham Əliyev, Ermənistanın baş naziri Nikol Paşinyan və Vladimir Putinin Rusiyada görüşəcəyi bildirilir. Üçtərəfli görüşdə yeni sənədlərin imzalanması gözlənilir. Bunun ardınca Prezident İlham Əliyev noyabrın 12-də İstambula səfər edəcək və Rəcəb Tayyib Ərdoğanla növbəti dəfə görüşəcək.**

Regionda müşahidə olunan bu proses mühüm hadisələrin gedişindən xəbər verir. Maraqlıdır, bu rəsmi görüşlər indiki real vəziyyətdə nəyə hesablanır. Gözlənildiyi kimi, Rusiyada baş tutacaq üçtərəfli görüşlərdə Azərbaycan-Ermənistan sərhədlərinin delimitasiya və demorkasiyası, kommunikasiyaların açılması ilə bağlı hansı razılaşmaların əldə olunacağı, hansı sazişlərin imzalanması nəzərdə tutulur. Rusiya və Türkiyənin də iştirak etdiyi bu görüşlərdə Azərbaycanı qane etməyən hansı şərtlərin ortaya atılması mümkündür?

■ **Politoloq Zərdüşt Əlizadə hafta.-az-a bildirib ki, 44 günlük müharibədə hər iki tərəf böyük itkilər versə də, bu gün tərəflər səy göstərməlidirlər ki, bölgəni ağır postmüharibə vəziyyətindən çıxarmaq mümkün olsun, davamlı sabitlik, sülh əldə edilsin.**

Politoloq hesab edir ki, məhz bunun üçün Azərbaycan və Ermənistan rəhbərləri Rusiyanın, Türkiyənin vasitəçiliyi ilə müəyyən əlaqələr qurmaqla danışıqlara başladılar və məsələlərin öz həllini tapmalı olduğunu müəyyənləşdirdilər.

“Bunlardan birincisi, dünənə qədər bir-birini tanımayan düşmən dövlətlərin arasında sərhədlərin əvvəlki xəritələrə uyğun olaraq delimitasiyası və demorkasiya əməliyyatlarının həyata keçirilməsidir. Bu çox mürəkkəb, ağır qərarların qəbul olunacağı məsələlərdir. Ermənistan Azərbaycanın sərhədlərini Qarabağın Azərbaycan torpaqları olması ilə birgə tanımalıdır. Eyni zamanda erməni dövlət ideologiyasının təməl qüsurlarından biri olan Qarabağın Azərbaycandan qoparılıb Ermənistana birləşdirilməsi ideyasından əl çəkməsi və etiraf etməsi baş verməlidir. Bu da ermənilər üçün ağrılıdır”.

Z.Əlizadə hesab edir ki, müharibədən sonra yaranmış vəziyyət ermənilərin xeyrinə deyil. Onun fikrincə, Türkiyənin, Rusiyanın, dünya dövlətlərinin mövqeyi artıq Ermənistanı delimitasiya məsələsində danışıqlara başlamağa, bu məqsədə hansısa dövlət komissiyası yaratmaqla qərar qəbul etməyə məcbur edib.

“Görünür, Moskvada keçiriləcək üçtərəfli görüşdə Vladimir Putin, Nikol Paşinyan və İlham Əliyevin qəbul elədiyi qərarlardan biri də delimitasiya ilə bağlı olacaq. İkinci qərar isə Ermənistanın minalarla bağlı xəritələri Azərbaycana verməsi olacaq. Əvəzində Azərbaycanda saxlanılan erməni hərbçilərinin Ermənistana qaytarılması mümkündür. Bu da sülh istiqamətində Azərbaycanın xoş niyyətini nümayiş etdirəcək.

Bundan sonra artıq tərəflər arasında ümumi razılıq yaranar və nəqliyyat, kommunikasiya xətlərinin açılması qərarı gerçəkləşər. Yəqin ki, bunlar həyata keçiriləndən sonra Azərbaycan və Türkiyənin bu məsələ ilə bağlı mövqelərini möhkəmlətmək, müəyyənləşdirmək üçün İlham Əliyev noyabrın 12-də Türkiyəyə səfəri gözlənir”.

Politoloq bütövlükdə hesab edir ki, 44 günlük müharibə nə qədər ağır olsa da, sülh istəkləri ilə bağlı addımları göstərir ki, Qarabağ münaqişəsi tədricən səngiməyə və öz həllini tapmağa yönlənib.

Z.Əlizadə hesab edir ki, Türkiyə ilə Rusiya arasında razılıq olmasaydı, bu proses baş tuta bilməzdi. Onun sözlərinə görə, necə ki, 1920-ci illərin əvvəllərində Rusiya-Türkiyə razılaşmasının nəticəsində bölgə müəyyən bir tarixi dönəmə şahid oldu, indi də Türkiyə-Rusiya razılaşması bölgə üçün çox mühüm rol oynayır.



**Zərdüşt Əlizadə,**
politoloq



**Fikrət Sadıqov,**
politoloq



**Yasəmən Qaraqoyunlu,**
siyasi şərhçi



**Natiq Cəfərli,**
politoloq

“Bu proses eyni zamanda Rusiya-Türkiyə əməkdaşlığını dərinləşdirir və hər iki dövlətin beynəlxalq aləmdə mövqeyini gücləndirir. Rusiya ilə Qərb arasında əməkdaşlıq yoxdur, Türkiyə ilə Qərb arasında bir çox məsələlərdə fikir ayrılıqları var. Rusiya ilə Türkiyə arasında fərqli yanaşmalar olsaydı, Qarabağ məsələsində ortaq məxrəcə gəlib real fəaliyyət göstərə bilməzdilər”.

Z.Əlizadə bildirib ki, Azərbaycan tərəfi müharibədə qalib tərəfdir və bu danışıqlarda, əldə olunan razılaşmalarda Azərbaycanı qane etməyən qərarların qəbul olunacağını düşünmürəm.

Türkiyə Prezidentinin Azərbaycana gəlişi, xüsusilə Füzuli aeraportunun açılışında iştirakı qardaş, müttəfiq dövlət kimi Azərbaycanın yanında olduğunu göstərir.

■ **Bu fikirləri hafta.az-a politoloq Fikrət Sadıqov bildirib. Politoloq qeyd edib ki, Türkiyə ilə Azərbaycan Şuşada “Şuşa Bəyannaməsi”nə imza atıb.** Bu bəyannamədə yer alan müddəalar onu göstərir ki, Türkiyə bir çox məsələlərdə, o cümlədən təhlükəsizlik, sabitliyin qorunması, yarana biləcək təhlükələrdə Azərbaycanın yanında olacaq. Türkiyə həm də xoş günlərində Azərbaycanla birgədir.

Politoloq hesab edir ki, Moskvada keçiriləcək üçtərəfli görüş Rusiyanın regionda aparıcı oyunçulardan biri olduğunu göstərir. “Rusiya bir tərəfdən Ermənistanda Rusiya meyilli qüvvələrin dəstəklənməsində maraqlıdır, bir tərəfdən də Rusiyaya loyal olan xarici siyasət kursunu həyata keçirərək Azərbaycanla strateji əməkdaşlıq xəttini inkişaf etdirmək niyyətindədir. Bu, hər halda Azərbaycan-Rusiya münasibətlərində özünü göstərir”. F.Sadıqov hazırda regionla bağlı mövcud problemlərin sərhədlərin delimitasiya və demarkasiyası, eləcə də sülh sazişi ilə bağlı olduğunu qeyd edib.

“Aydın məsələdir ki, Ermənistan bu istiqamətdə bir sıra əngəllər yaratmağa çalışacaq. Ola bilər ki, burada hərbi əsirlərin qaytarılması, Rusiyadan Ermənistana hansısa bir yolun açılışı xüsusi yer alsın. Bir sıra məsələlərdə, o cümlədən Zəngəzur dəhlizinin açılmasında da müəyyən şərtlər qoyula bilər.

Təbii ki, maraqlarımıza cavab verməyəcəksə biz bunu yerinə yetirmək məcbiriyyətində deyilik. Dövlət başçımız bunu xüsusilə qeyd edib ki, əgər kimsə bundan sonra da bizə problem yaratmaq və əngəllər törətmək istəsə, onda biz axıra qədər gedəcəyik. Prezident demişdi ki, biz öz maraqlarımıza uyğun addımları atmalıyıq. Bu regionda, Cənubi Qafqazda stabillik yaranmalıdır. Biz bu istiqamətdə əlimizdən gələni edəcəyik. Torpaqları azad etmişik və əgər kimsə düşünürsə ki, biz bundan sonra oturub susacağıq, kimlərinsə tələblərini yerinə yetirəcəyik, artıq yanılır. Biz geosiyasi vəziyyəti dəyişdirdik, bundan sonra da bu çərçivədə addımlarımızı atmağa hazırıq”, -deyə F.Sadıqov proseslərin nəzarətdə olduğunu vurğulayıb.

■ **Füzulidə Hava Limanının açılması və Rəcəb Tayyib Ərdoğanın o mərasimə qatılması çox önəmli hadisədir. Bu fikirləri hafta.az-a siyasi şərhçi Yasəmən Qaraqoyunlu deyib.**

O hesab edir ki, bu, Türkiyənin Qarabağın işğaldan azad edilməsində Azərbaycanı dəstəkləməsi, onun Qafqazda gedən siyasi proseslərdəki iştirakını təsdiq edən bir səfərdir. Bu o deməkdir ki, Türkiyə Qafqazdadır.

Y.Qaraqoyunlu Ərdoğanın Azərbaycana səfərinin Türkiyədə Osman Kavala məsələsinin yenudən gündəm gətirilməsi ərəfəsinə düşməsini də təsadüfi saymayıb. O, Türkiyə-Azərbaycan strateji birliyini həm də Avroatlantik dünyanın Türkiyəni bölmək siyasətinə qarşı olan birlik kimi də xarakterizə edib. Onun fikrincə, Avropa Türkiyədə Yunanıstan və Ermənistan qurma planlarını həyata keçirir. “NATO üzvləri olan dövlətlər Türkiyə hökumətinə və Ərdoğana basqı edirlər ki, Osman Kavalanı azad etsinlər. Oaman Kavalanın azad edilməsinə çağırış, Dəmir Taşın və Öcalanın azad edilməsinə çağırışın davamıdır. Burada da məqsəd NATO üzv olan ölkələrin Türkiyənin dövlət, torpaq bütünlüyünü boğmaq istəyən güclərin fəaliyyətini dəstəkləməsidir. Təbii ki, Ərdoğan da bu olaya çox ciddi təpki göstərdi və həmin ölkələrin səfirlərinin “persona non-qrada” elan edilməsi ilə bağlı tapşırıq da verdi. Bu üzdən bölgəmizdə Türkiyə ilə Azərbaycan müttəfiq olmalı, bir-birini dəstəkləməlidir. Ermənilərin işğal siyasətinin arxasında da Avroatlantik dünyanın ciddi dəstəkləri var. Ərdoğann Azərbaycana gəlişi bütün bu hadisələrin fonunda çox önəmlidir. Milli müqavimətimizin, torpaq suverenliyimizin, bütövlüyümüzün güclənməsində hər iki dövlət yanaşı iştirak etməlidir, özünü qorumalıdır”.

■ **Azərbaycan və Türkiyə uzun müddətdir ki, regionda atılan addımları birgə koordinasiya etməklə məşğuldur. Bu fikirləri hafta.az-a politoloq Natiq Cəfərli deyib.**

> “
>
> *Türkiyə ilə Rusiya arasında razılıq olmasaydı, bu proses baş tuta bilməzdi...*
>
> *Türkiyə bir çox məsələlərdə, o cümlədən təhlükəsizlik, sabitliyin qorunması, yarana biləcək təhlükələrdə Azərbaycanın yanında olacaq...*
>
> *Bölgəmizdə Türkiyə ilə Azərbaycan müttəfiq olmalı, bir-birini dəstəkləməlidir...*
>
> *Azərbaycan atdığı istənilən addımlardan Türkiyə ilə birgə məsləhətləşmənin olması da təbiidir...*

Onun sözlərinə görə, Türkiyə-Azərbaycan münasibətlərinin iqtisadi, siyasi, hərbi sahədə dərinləşməsi kifayət qədər sürətlə gedən və heç də hamıya xoş olmayan prosesdir. Politoloq eyni zamanda hesab edir ki, Türkiyənin müxtəlif layihələrdə Azərbaycanla birgə iştirakı Azərbaycanın əlini gücləndirən, Türkiyənin də iqtisadi-siyasi maraqlarına xidmət edən faktordur.

“Türkiyə Prezidentinin növbəti dəfə Azərbaycana səfəri bu əlaqələrin genişləndirilməsi, yeni loqistik koridorların, marşrutların açılması üçün müəyyən dərəcədə alt yapıların yaradılmasına səbəb olacaq. Əlaqələrin kifayət qədər genişləndirilməsi gözlənilir. Azərbaycan atdığı istənilən addımlardan Türkiyə ilə birgə məsləhətləşmənin olması da təbiidir. Çox güman ki, Moskva-Bakı, Moskva - Ankara görüşlərində də Bakı ilə Türkiyə eyni mövqedən çıxış etməyə və mövqeləri uzlaşdırmağa və razılaşdırmağa çalışırlar. Azərbaycanla Ermənistan arasında baş tuta biləcək növbəti sazişlər Türkiyənin birbaşa iştirakı olmadan, amma dolayı iştirakı ilə keçirilir. Bu, aydın şəkildə görünür. Rusiyanın burda əsas moderator olması nəzərə çarpır.

Göründüyü kimi, Rusiya da bir çox məsələlərdə Türkiyə ilə fikir mübadiləsi aparmaq istəyir. Rusiya ilə Türkiyənin dünyanın bir çox regionlarında da maraqlarının toquşması və yaxud da üst-üstə düşməsi baş verir. Nəticə etibarilə iki böyük dövlətin regionda sülh və sabitliyin bərqərar olmasında önəmli rol oynayacaq. Ona görə də Azərbaycan-Türkiyə əlaqələrinin genişləndirilməsi və gücləndirilməsi alternativi yoxdur”.

✍ *Tahirə*

## Müsahib

# Putinin bəyanatlarını Rusiyanın böyük lütfü kimi qəbul edirik



**Arif Paşa,**
keçmiş Laçın alayının komandiri, istefada olan polkovnik

***Keçmiş Laçın alayının komandiri, istefada olan polkovnik Arif Paşa ilə hafta.az üçün növbəti söhbətimizdə Rusiyanın sülhməramlı sayılan hərbi kontingentinin Laçın dəhlizi və Qarabağ torpaqlarındakı fəaliyyəti, "dəmir yumruğ"un hələ tam əzmədiyi Ermənistanın iddialarına qarşı bundan sonrakı mübarizə yolları və s. haqda fikir mübadiləsi apardıq.***

***- Arif bəy, 10 Noyabr üçtərəfli razılaşmasından bəri Laçın rayon mərkəzi və Rusiyanın "sülhməramlı" sayılan hərbi birləşmələrinin müvəqqəti yerləşdiyi dəhliz ərazisinə daxil olan kəndləri ilə bağlı bir sıra müəmmalı proseslər baş verir. Məsələn, bu il iyulun 29-da Rusiya Müdafiə Nazirliyinin rəsmi saytının Azərbaycan Respublikası ərazisindəki Rusiya sülhməramlı hərbi kontingentinə aid bölməsində Laçın rayonu "Dağlıq Qarabağın rayonu" kimi təqdim edilir. Üstəlik, Rusiya hərbçilərinin humanitar yardım göstərdiyi Laçın şəhərində və rayonun ermənilərin adlandırdığı kimi, "Aqavno" adlandırılan Zabux kəndində qanunsuz məskunlaşan ermənilər "yerli sakin"lər kimi təqdim olunur. Azərbaycan tərəfindən heç bir rəsmi reaksiya görməyən Rusiya MN oktyabrın 13-də də yenə eyni "yanlışlığı" təkrar edir...***

- Bütün bunlar həm Rusiya rəhbərliyi və ordusunun, həm də ermənilərin xislətinə uyğun olaylardır... Zabux kəndində qanunsuz məskunlaşmış Livan ermənisi Andranik Çavuşyan və digərləri mediaya açqlamalarında deyirlər ki, biz burada yüzillərlə yaşamışıq... Bu, üzr istəyirəm, erməni həyasızlığının bir təzahürüdür. Dünya tarixçiləri də, biz də bilirik ki, Şuşa qalasının əsası Pənahəli xan Cavanşir tərəfindən təxminən 3 əsr əvvəl qoyulub. Laçının əsası isə 1921-ci ildə Abdallar adlanan kəndin yerində qoyulub. Onu da yaxşı bilirsiniz ki, həmin kənd Şah İsmayıl Xətainin dövründə də məşhur olan qədim abdallar türk tayfasının adı ilə bağlı olub. Bunu da bilməyənlərə xatırladım ki, "abdal" sözü aqil, müdrik sözləri ilə sinonimlik təşkil edən bir məfhumdur...

Bir sözlə, gerçək tarixi faktlar müqabilində haylar deyir ki, biz Şuşada da, Laçında da yüzillərdir yaşayırıq...

Bilirsiniz, ermənilərin bu dərəcədə həyasızlaşmasının bir səbəbi də odur ki, biz - türklər, xüsusən Azərbaycan xalqı olaraq son dövrlərədək, yəni 44 günlük savaşımızadək əsasən müdafiə taktikası tutmuşuq. Amma məşhur kəlamda deyildiyi kimi, ən yaxşı müdafiə hücumdur. Yəni biz hücuma keçmədikcə istər haylar, istərsə də onları himayə edən Rusiya və digərləri daha da həyasızlaşır...

***- Necə hesab edirsiniz, hərbdən başqa əsas hansı sahələrdə genişmiqyaslı hücuma keçməliyik?***

- İctimai həyata aid bütün sahələrdə hücumda olmalıyıq və xüsusən siyasi-ideloji, elmi, tarixi sahələrdə... Məsələn, biz bir xalq, dövlət olaraq 1920-ci ildə Rusiyanın qırmızı bolşevik ordusu ölkəmizi işğal edib milli hakimiyyətimizi devirəndən sonra sovet imperiyasının tərkibinə hansı ərazi, hansı xəritə ilə girdiyimizi unutmamalıyıq. Əgər rəsmən deyiriksə ki, Azərbaycan Respublikası olaraq 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin varisiyik, o halda həmin ilk demokratik müstəqil dövlətimizin də ərazisinə, xəritəsinə əsaslanmalıyıq. Yəni varis olaraq 114 min kvadrat-kilometrlik ərazimizin rəsmi iddiasını irəli sürməli və bunu beynəlxalq təşkilatlar qarşısında qaldırmalıyıq. Bu məsələni həm ölkə, həm dünya ictimaiyyəti arasında daim təbliğ etməliyik.

Bu gün isə hər dəfə Putin deyəndə ki, Azərbaycan-Ermənistan sərhədlərinin demarkasiya və delimitasiyası sovet dövrünün xəritələri əsasında həyata keçirilməlidir, bunu Rusiya dövlətinin Azərbaycana böyük bir lütfü kimi qəbul edirik. Sanki bu cür deməyə də bilərmişlər. Məsələni belə qoymalıyıq ki, sovet dövründə qanunsuz şəkildə, heç bir əsas olmadan Ermənistana bağışlanmış Qərbi Zəngəzur və digər təxminən 30 min kvadrat kilometrlik torpaqlarımızı istəyirik. Hələ Rusiyanın özündə və müəyyən dərəcədə isti münasibətimiz olan digər respublikanın ərazisində qalan torpaqlarımızı demirik...

Odur ki, demarkasiya və delimitasiya da Xalq Cümhuriyyəti dövrünün, 1918-1920-ci illərin xəritələri əsasında aparılmalıdır. Və həmin xəritələrə əsasən Ermənistanla Azərbaycanın sərhəd xətləri Göyçə gölünün ortasından keçir. Bu baxımdan Qərbi Zəngəzur, o cümlədən Meğri ərazisi də qeyd-şərtsiz Azərbaycana qaytarılmalıdır. Hazırda Naxçıvan sanki kənarda bir anklav kimi qalıb, yəni Azərbaycanı əsas hissəsindən aralı düşüb...

Ermənistan bizə yalvarmalıdır ki, dayanın. Ermənistan məğlubdur, biz onlara güzəştə getmişik. Azərbaycan hücumu davam etdirib, Xankəndinə girərdi, lap İrəvana da daxil ola bilərdi. İkincisi, bir anlığa təsəvvür edək ki, eyni coğrafi ərazidə Azərbaycanın yerinə Ermənistandır, Ermənistanın yerində Azərbaycandır... Orta Asiyadakı ölkələr də türkdilli yox, ermənidilli ölkələrdir. Görün, ermənilər nələr edərdi... Bir sözlə, bizim Ermənistanı birmənalı olaraq yer üzündən silmək şanslarımız var. Hazırda biz, əksinə, Ermənistandan qalib dövlət olaraq özümüzə qarşı hansısa lütfkarlıq gözləyirik...

> *"Demarkasiya və delimitasiya 1918-1920-ci illərin xəritələri əsasında aparılmalıdır...*

> *Düzgün hesablansa, Laçın rayonunun sahəsi, təxminən, bir neçə yüz kvadrat-kilometr artıq göstərilməlidir...*

***- Zəhmət olmasa, konkret olaraq Rusiya MN-in öz saytında Laçını "Dağlıq Qarabağın rayonu" adlandırmasına münasibət bildirərdiniz...***

- Rusiyanın Azərbaycana münasibətinin əsl, gerçək mahiyyəti əvvəldən bəllidir. Ötən il noyabrın 10-dan, yəni Rusiya ordusunun "sülhməramlı" adıyla torpaqlarımıza daxil olduğu gündən demişəm ki, bu ordudan sülhməramlı olmayıb, olmayacaq da. 1-ci Qarabağ savaşında bunun hamısını yaşamışam, görmüşəm. Rusiya ordusunun xislətinə, xarakterinə yaxşı bələdəm. Hazırda bir sıra politoloq hesab edilənlər deyir ki, guya Rusiyada Azərbaycanı istəməyən güclər var və Qarabağda bizim suverenliyimizə qarşı atılan addımları onlar təşkil edirlər. Bu, çox sadəlöhv və məntiqsiz yanaşmadır.

Əslində, bu siyasət məhz Rusiya prezidenti Putinin öz siyasətidir. Yadınızda olar, 10 noyabr razılaşmasından az sonrakı çıxışında Putin dedi ki, guya Qarabağ münaqişəsi Sumqayıt hadisələrindən başlanıb. Bununla Rusiya lideri konkret olaraq tarixi təhrif etdi və Azərbaycanı səbəbkar kimi göstərdi. Halbuki, cənab Putin ən azı onu bilməmiş deyil ki, Sumqayıt hadisələrindən öncə "Ermənistan" adlanan Qərbi Azərbaycanda - Quqark adlanan yerdə erməni faşistləri insanları, bütöv bir ailəni diri-diri dəmir borulara dolduraraq hər iki başını qaynaq edib uçuruma yuvarlayıblar...

***- Maraqlıdır ki, Müdafiə Nazirliyinin rəsmi saytında 2020-ci il dekabrın 1-dən, yəni Laçın rayonu işğaldan azad olunan gündən bəri bu rayonun ərazisi sovet dövründən, müctəqillik illərindən bu yana bildiyimiz, işğal dönəmində orta məktəblərdə şagirdlərə əzbərlətdiyimiz 1835 kv.km yox, 1800 kv.km göstərilir...***

- Laçın rayonunun sahəsi sovet dövründən, eləcə də müstəqillik illərində, 1835 kvadrat-kilometr olub. 44 günlük savaş nəticəsində rayonun əksər hissəsi bir güllə atmadan qaytarılandan sonra hesab edirdik ki, sovet imperiyası dönəmində Ermənistanla sərhədə yaxın Qaragöl qoruğu, Ərəvis, Cağazur, Cicimli kəndləri ərazilərindən də qopardılaraq ermənilərə verilmiş torpaqları da düzgün demarkasiya və delimitasiya şərti ilə nəzərə alsaq, Azərbaycanın rəsmi qurumları Laçın rayonun sahəsini əskik yox, haradasa bir neçə yüz kvadrat-kilometr artıq göstərməlidir.

Bu yanlışlığa yol verilməsində iki variant ola bilər, sadəcə, texniki səhvə yol verilib. Belə olan halda həmin texniki səhv son bir ilə yaxın müddətdə, yaxud heç olmasa, media bu haqda informasiya yaydıqdan sonra mütləq düzəldilməli idi. Əgər texniki yanlışlıq olmayıbsa, deməli, burada hansısa xarici ölkə kəşfiyyat qurumunun əli var. Yəni həmin yanlış məlumat bilərəkdən, qəsdən şüurlu şəkildə Azərbaycanın rəsmi qurumunun saytına yerləşdirilir və o digər rəsmi və qeyri rəsmi məlumat, çıxış və yazılarda da təkrar olunur, mediada, saytlarda tirajlanır və insanlar buna alışdırılır. Söhbət ondan gedir ki, bunu təşkil edən xarici güclər ya Laçın rayonunun hazırda sülhməramlı adlanan Rusiya hərbi kontingentinin himayəsi ilə "dəhliz" kimi Qarabağ və Ermənistan ermənilərinin istifadəsinə verilmiş ərazini (təxmini hesablamalara görə, sahəsi 35 kv.km.-dir) nəzərdə tuturlar. Yaxud 3 il ərzində Laçın şəhərindən yan keçməklə çəkiləcək Şuşa rayonunun sovet dövründən ermənilərin yerləşdirildiyi təqribən Onverst-Böyük Qaladərəsi-Kiçik Qaladərəsi- Laçın rayonunun Qayğı qəsəbəsi - Ermənistan sərhədi marşrutu ilə çəkiləcək yeni "humanitar dəhliz" yolunun tutduğu yenə təxminən 35 kv.km-lik ərazi hesaba alınır. Yəni məqsəd ondan ibarətdir ki, sözügedən ərazi ya Ermənistanın hüquqi tabeçiliyinə, yaxud nə vaxtsa ATƏT-in, Avropa İttifaqının, ABŞ-ın və s. dəstəyi ilə Qarabağın "statusu" "dirildiləcəyi" halda həmin separatçı qurumun "yurisdiksiyasına" verilsin.

Belə şübhələr sözügedən informasiya ilə rastlaşan hər kəsdə yarana bilər. Odur ki, ilk növbədə Müdafiə Nazirliyi və digər rəsmi qurumlar bu məsələyə təcili aydınlıq gətirməlidir. Əks halda hər bir vətəndaş, xüsusilə Qarabağ, Laçın ziyalıları, yəni o torpaqları yaxşı tanıyan, hər qarışına bələd olan insanlar buna aydınlıq gətirilməsini tələb etməlidir...

***- Son təxminən bir ilə yaxın müddətdə hansı nəticəyə gəldiniz; 1988-1991-ci illərdə Arkadi Volskinin "Xüsusi İdarə Komitəsi", Polyaniçkonun Təşkilat Komitəsinin dövründə Azərbaycan torpaqlarındakı sovet-rus ordusu ilə hazırkı sülməramlı sayılan Rusiya hərbi kontingenti arasında hansı oxşar və fərqli cəhətlər var?***

- Dəfələrlə demişəm ki, Volski zamanında Qarabağda olan sovet-rus ordusunun Azərbaycana münasibəti düşməncəsinə idi. Hələ bu o zaman idi ki, biz bir ölkənin tərkibində olmaqla eyni ideoloji platformaya -sosializm ideologiyasına söykənirdik, sovet əsgəri, zabiti də komsomol, kommunist idi, biz də, onlar da ateist hesab olunurdu, biz də...Yəni ortaq dəyərlərin olduğu bir məqamda bizə düşməncəsinə baxan bir ordu bu gün artıq öz imperiya ambisiyalarını yeritməyə can atan və dini baxımdan xristian təəssübkeşliyi ilə Ermənistanın yanında olan Rusiya ordusudur. Yəni deyilən faktorları cəmləsək, hazırda Qarabağ torpaqlarımızda və Laçın dəhliizində yerləşən ordunun Azərbaycana gerçək münasibətinin necə olduğu bilinər.

Bir sözlə, özümüzü aldatmağa dəyməz, Rusiya ordusu heç zaman sülhməramlı olmayıb, xüsusən də Azərbaycana münasibətdə. 1990-cı illərdə Kreml Həştərxandan İranın Ənzəli limanına tankları göndərirdi və onlar Ermənistan ərazisindən keçib Qarabağdakı erməni ordusuna çatdırılırdı.

30 ilə yaxın işğal dövründə də, indi, yəni II Qarabağ savaşındakı qələbəmizdən sonra da üzdə bizimlə müttəfiq olduğunu söyləyən Moskva daim Ermənistana gizli və açıq şəkildə dəstək verir. Odur ki, hələ torpaqlarımızın xeyli hissəsini azad etməklə işimiz bitməyib və unutmayaq ki, biz revanşist erməni qüvvələri ilə yanaşı, yenə də nəhəng Rusiya imperiyasıyla üz-üzəyik. Bu səbəbdən də öncə dediyim kimi, bu mübarizədə qalib olaraq yaxın gələcəkdə Laçın dəhlizi, Xankəndi, Xocalı və digər ərazilərimizdə də öz yurisdiksiyamıza və əsl müstəqilliyə nail olmaqdan ötrü öncə daxildə milli birlik, milli müqavimət ruhunun gücləndirilməsi gərəkdir.

***✍ Sultan Laçın***

---

## Araşdırma

**Azərbaycanda zərgərlik bazarında fəaliyyət göstərən bəzi sahibkarlar vitrindəki məhsullarının sayını azaltmaq məcburiyyətində qalıblar. Onların iddiasına görə, buna səbəb vergi xidməti əməkdaşlarının satılmayan məhsulları da vergiyə cəlb etməsidir. Bu əlavə "vergi yükü" bazarda zərgərlik məmulatları çeşidinin kəskin şəkildə azalması ilə nəticələnib. Sahibkarlar onu da iddia edirlər ki, bazarda əlavə "vergi yükü"nün yaradılması kiçik sahibkarların sıxışdırılması və bu yolla "AzerGold"un bazara giriş imkanlarının genişləndirilməsi məqsədi daşıyır. Xatırladaq ki, bu ayın əvvəlində "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti (QSC) tərəfindən yerli qızıl xammalından istehsal edilən məhsulların ilk satış və mübadilə mərkəzi istifadəyə verilib. Mərkəzdə Səhmdar Cəmiyyətin 2019-cu ildən etibarən yerli pərakəndə bazara təqdim etdiyi 5, 10, 20 qramlıq sikkə və külçələrlə yanaşı, çəkisi 1, 10 unsiya, 500 qram və 1 kiloqram olan yeni qızıl külçələr və fərqli dizaynlarda qızıl sikkələr satışa çıxarılıb.**

# Qızıl univermaqlarında boş qalan vitrinlər

Qızıl bazarındakı mövcud vəziyyəti öyrənmək üçün hafta.az olaraq "Gənclik" metrostansiyası yaxınlığında yerləşən qızıl univermağına baş çəkdik. Zərgərlik məmulatlarının alğı-satqısı ilə məşğul olan sahibkarlarla apardığımız söhbət əsnasında məlum olur ki, bazarda pandemiyanın təsirləri hələ də qalmaqdadır. Sahibkarların sözlərinə görə, pandemiyadan əvvəlki dövrlə müqayisədə alıcılıq qabiliyyəti təxminən 2 dəfə aşağı düşüb. Hazırda vətəndaşlar qızılı daha çox almağa deyil, satmağa gəlirlər. Müxtəlif növ zinət əşyalarının sərgiləndiyi vitrinlərə göz gəzdiririk, bəzi vitrinlər tamamilə boşdur, yeni icarədarlarını gözləyir. Bəzi vitrinlərdə isə çeşid sayının az olması gözə dəyir, sərgilənən məhsulların əksəriyyəti qramı aşağı olan məhsullardır. Sahibkarlar deyirlər ki, yaxşı alver olmadığından qızıl alğı-satqısı ilə məşğul olan bəzi şəxslər bazarı tərk etmək məcburiyyətində qalıblar. Mövcud vəziyyətin satılmayan qızıl məmulatlarına "vergi" tələb edilməsi iddiası ilə əlaqəsinin olub-olmamasına gəlincə, sahibkarlar bu mövzuda danışmaq istəmədiklərini bildirirlər. Vitrinlərdə qramı aşağı olan zərgərlik məmulatlarına üstünlük verilməsini isə son 2 ildə belə məmulatlara tələbatın daha yüksək olması ilə bağlayırlar. Sahibkarların sözlərinə görə, hazırda müştərilər qramı az, amma həcmli məhsullara daha çox üstünlük verirlər.



■ **Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən iqtisadçı-ekspert Akif Nəsirli deyir ki, satılmayan məhsulun vergiyə cəlb olunması qeyri-qanuni hərəkətdir: "Əgər həqiqətən də belə bir hal baş verirsə, bu məsələ qanunsuzdur.** Zərgərlik məmulatları da digər mallar kimi vergiyə cəlb olunmalıdır. Özü də sahibkarın ancaq satılan məhsul üzərində vergi öhdəliyi yaranır. Yəni, vergi qanunvericiliyində qızıl məmulatlarının xüsusi bir özəlliklə vergiyə cəlb olunması və ya xüsusi özəlliklə güzəşt edilməsi proseduru yoxdur. Sadəcə 2021-ci il yanvarın 1-dən etibarən Azərbaycanda qızıldan,gümüşdən hazırlanan zərgərlik məmulatlarının istehsalı və emalı işlərinin görülməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın təsdiqedici sənədi əsasında dəzgahların, avadanlıqların və qurğuların idxalı 3 il müddətinə əlavə dəyər vergisindən azad edilib. Eyni zamanda külçə, sikkə və ya qranul şəklində qızılın və gümüşün satışı da ƏDV-dən azad olunub. Burada hazır zərgərlik məmulatlarından söhbət getmir və bu satışa aid deyil".

> *Sahibkarın ancaq satılan məhsul üzərində vergi öhdəliyi yaranır*

> *AzerGold zərgərlik məmulatının satışı ilə məşğul olmur və bu bazara da rəqib deyil*

> *Əgər sahibkarlar hər hansı qanunsuz tələb və ya hərəkətlərlə qarşılaşıblarsa, konkret halları araşdırmağa hazır olduğumuzu bildiririk*

■ **Məsələyə münasibət açıqlayan bank və vergi məsələləri üzrə ekspert, hüquqşünas Əkrəm Həsənov da deyir ki, vitrində olan və satılmayan məhsula görə vergi tələb olunması qanuna ziddir:**



"Əslində mən belə bir halın baş verdiyinə də inanmıram. Məsələn, biz hər gün supermarketlərdə oluruq və marketlərin vitrinlərində mindən çox adda məhsul var. Market sahibi satmadığı məhsulun dəyəri müqabilində də vergi ödəməlidirmi? Əlbəttə ki, yox. Yəni, sahibkar vitrinində qida məhsulu və ya zərgərlik məmulatı satmağından asılı olmayaraq eyni formada vergi ödəyir. Qanunvericilik bu məsələdə sahibkarın üzərinə əlavə dəyər vergisi və mənfəət, fiziki şəxsdən söhbət getdikdə isə gəlir vergisi ödəmək öhdəliyi qoyulub. Mağazada olan və satılmayan mala görə heç bir vergi yoxdur. Ona görə də vergi orqanları əməkdaşlarının belə bir addım ata biləcəyinə inanmıram. Düzdür, vergi orqanlarının vəzifəsi odur ki, mümkün olan hər yerdən dövlət büdcəsinə pul toplasın. Hər şeyin də bir həddi var. Hesab edirəm ki, burada söhbət başqa məsələlərdən gedir. Yəni, heç kəsə sirr deyil ki, az vergi ödəmək üçün zərgərlər nəyisə satanda onun qiymətini aşağı göstərir. Təbii ki, bu halda Vergi Məcəlləsi vergi orqanına hüquq verir ki, bazar qiymətini rəhbər tutub ona uyğun vergi tələb etsin. Belə halın baş verməsi mümkündür və qanunauyğundur". Bu sahədəki kiçik sahibkarların məqsədli şəkildə sıxışdırılması və əlavə "vergi yükü" yaradılmaqla "AzerGold"un bazarının genişləndirilməsini reallıqdan uzaq iddia hesab edən ekspert vurğulayır ki, yerli zərgərlik bazarında nəsillər boyu inhisar olmayıb: "Bu sahədə indi də inhisarçılıq yoxdur. Məncə bu iddianı sahibkarlar özlərinə haqq qazandırmaq üçün ortaya atıblar. Ola bilsin ki, vergi orqanları da hansısa zərgərlik məmulatını qymətləndirərkən şişirtmələrə yol versin, nəticədə sahibkar daha artıq vergi ödəmək məcburiyyətində qalsın. Bu halda təbii ki, sahibkar haqlıdır. Amma bu anlaşılmazlığın ortaya çıxmasında "AzerGold" ehtimalını görmürəm. Çünki "AzerGold" zərgərlik məmulatının satışı ilə məşğul olmur və bu bazara da rəqib deyil".

■ **Səsləndirilən iddialarla bağlı Dövlət Vergi Xidmətinə də müraciət etdik. Qurumdan hafta.az-ın sorğusuna cavab olaraq bildirdilər ki, səslənən iddiaların heç bir əsası yoxdur və satılmayan məhsula görə, sahibkardan vergi tələb olunması absurd məsələdir:** "Ticarət fəaliyyəti ilə məşğul olan şəxslər fəaliyyətə başladığı günədək vergi orqanına ərizə verməklə vergi ödəyicisi kimi uçota alınmalı və həmin fəaliyyətdən əldə etdiyi gəlirlər üzrə tətbiq edilən vergitutma sistemindən (sadələşdirilmiş vergi və ya gəlir vergisi) asılı olaraq müvafiq vergiləri hesablayıb dövlət büdcəsinə ödəməlidir. Vergi Məcəlləsinin 1 yanvar 2019-cu il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən qızıl, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatlarının, habelə almazın (emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş və emal olunmamış, çeşidlənməmiş, çərçivəyə salınmamış və bərkidilməmiş almaz) satışını həyata keçirən şəxslərin sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququ yoxdur. Buna əsasən qızıl və digər zərgərlik məhsullarının satışını həyata keçirən fiziki şəxslər gəlir vergisinin ödəyicisi kimi uçota alınırlar.

Qeyd olunan fəaliyyət zamanı əldə edilmiş gəlirdən həmin gəlirin əldə edilməsi ilə bağlı çəkilən xərclər çıxıldıqdan sonra qalan məbləğdən 20 faiz dərəcə ilə gəlir vergisi hesablanıb dövlət büdcəsinə ödənilir. Bu zaman həmin şəxs mikro sahibkarlıq subyekti hesab olunduğu halda (illik gəliri 200.000 manatdan yuxarı olmayan şəxslər) sahibkarlıq fəaliyyətindən əldə etdiyi gəlirdən gəlirin əldə edilməsi ilə bağlı çəkilən xərclər çıxılmaqla qalan fərqdən 75 faiz vergi güzəşti də çıxılmaqla 20 faiz dərəcə ilə, nəticə etibari ilə əldə etdiyi gəlirdən 5 faiz dərəcə ilə gəlir vergisi ödəməlidir. Məlumat üçün bildirirk ki, Vergi Məcəlləsinə əsasən, heç bir şəxsin üzərinə bu Məcəllə ilə müəyyən edilən vergilərin xüsusiyyətlərinə malik olan və bu Məcəllə ilə müəyyən edilməyən, yaxud bu Məcəllə ilə müəyyən edilən qaydalardan fərqli olaraq müəyyən edilən vergilər ödəmək vəzifəsi qoyula bilməz. Əgər sahibkarlar hər hansı qanunsuz tələb və ya hərəkətlərlə qarşılaşıblarsa, konkret halları araşdırmağa hazır olduğumuzu bildiririk".

***✍ Sevinc***

# Kibertəhlükəsizliyi necə təmin etməli

## Layihə



***Qloballaşma dövründə kibertəhdid bütün dövlətlər üçün olduqca aktual məsələdir. Kiberhücumlar sərhəd tanımır və bütün sektorların həmişə onlarla qarşılaşma riski var. Ona görə də bu gün kibertəhlükəsizlik ölkələrin, cəmiyyətlərin bütün səviyyələrinə təsir edən strateji milli məsələyə çevrilib. Beynəlxalq təşkilatlar tərəfindən aparılan təhlillərə görə, kibercinayətkarlıq və kiberinsidentlər nəticəsində dünya iqtisadiyyatına dəyən illik zərər hazırda 1 trilyon ABŞ dollarından çoxdur. Bu göstəricinin 2025-ci ilə qədər 10 trilyon ABŞ dollarına yüksələcəyi təxmin edilir. Bu isə öz növbəsində ölkələr səviyyəsində hüquqi, təşkilati, texniki və texnoloji məqamları nəzərdə tutan ümummilli yanaşmanın formalaşdırılmasını tələb edir.***

Qeyd edək ki, bu gün kibertəhlükəsizlk məsələsi Azərbaycan hökümətinin də diqqət mərkəzindədir. Son 10 ildə ölkəmizdə kibertəhlükəsizliklə bağlı müxtəlif addımlar atılıb. Azərbaycan hələ 2008-ci ildə Avropa Şurasının "Kibercinayətkarlıq haqqında" Konvensiyasını imzalayıb. Həmçinin "Şərq tərəfdaşlığı - Avropa Şurası mexanizmi" proqramı çərçivəsində həyata keçirilən kibercinayətkarlığa qarşı mübarizə sahəsində əməkdaşlıq layihəsində fəal iştirak edir. Bundan əlavə, respublikada informasiya proseslərinin mühafizəsi, sabitliyi və fasiləsizliyi, dövlət orqanlarının informasiya ehtiyatlarının qorunması, bu sahədə təhdidlərin qarşısının alınması, təhlili və qabaqlanması üçün dövlət və qeyri-dövlət informasiya infrastrukturu subyektlərinin, onların istifadəçilərinin fəaliyyətinin əlaqələndirilməsi, kibertəhlükəsizlik sahəsində risklərin qiymətləndirilməsi və idarə olunması, ümummilli hazırlığın və maarifləndirmənin təmin edilməsi məqsədilə 2012-ci ildə "İnformasiya təhlükəsizliyi sahəsində fəaliyyətin təkmilləşdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidenti tərəfindən Fərman imzalanıb. Fərmana əsasən, Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi və Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında əlaqələndirici qurum olan Elektron Təhlükəsizlik Mərkəzi yaradılıb və s.

Qeyd edək ki, kibertəhlükəsizliyi 100 faiz təmin etmək heç vaxt mümkün olmur. Bacarıqları üstün xaker və ya kibercinayətkar hər zaman hücum üçün alternativ bir yol tapa bilir. Mütəxəssislər bildirirlər ki, bəzi qaydalara əməl etməklə bu hücumlardan 80-90 faiz müdafiə olunmaq mümkündür. Bunun üçün antivirus işlətmək tövsiyyə olunur. Bir çox antiviruslarda bank şifrələrinin qorunmasından təhlükəsizlik divarına qədər (Firewall) bir çox funksiyalar var. Bu səbəbdən kompüterinizdə, hətta mobil telefonuzda təhlükəsizliyi təmin etmək üçün ilk növbədə antiviruslardan istifadə etməlisiniz.

Əməliyyat sisteminin Təhlükəsizlik Divarini deaktiv etməmək (Windows Firewall) vacib məsələdir. Adətən, bir çox istifadəçi təhlükəsizlik divarını deaktiv edərək əməliyyat sistemini elə istifadə edir. Bu bir başa cihazınızı kiber təhlükələrə qarşı qorunmasız qoymaqdır. Bu təhlükəsizlik divarı arxa planda işləyən servisləri analiz edərək bilinməyən servislərin internetə çıxışını qadağan edir. Mütəxəssislər modem və ya "router"inizin sistemini yeniləməyi məsləhət görürlər. Əslində, şəbəkə ilə əlaqə quran cihazların da sistemləri var və bu sistemlərin də müəyyən açıqları ola bilir. Məsələn, Tp-link cihazlarda tapılan son açıq ilə şəbəkəyə qoşularaq komputerə müdaxilə etmək mümkün idi. Şirkət tərəfindən yayımlanan yeni sistemlə bu açıq bağlandı. Ona görə də modem və router aldığınızda rəsmi saytına giriş edərək ən sonuncu sistemi yükləyib quraşdırın. Bu sizin kiber təhlükəsizliyini müəyyən dərəcədə təmin edir.

*Bu kimi hücumlardan hər il dünya iqtisadiyyatına 1 trilyon dollardan çox zərər dəyir*

Təhlükəli görünən saytlardan,tətbiqlərdən və fayllardan uzaq durmaq vacib sayılır. Əgər bu kimi variantları istifadə etmirsinizsə daha da diqqətli olmaq məcburiyyətindəsiniz. Saytlar vasitəsilə "adaware" tipli viruslar, fayllardan virus və troyanlar, tətbiqlərdən isə virus və soxulcanlar yoluxa bilər. Ona görə girdiyiniz saytlara daha diqqətli olmalısınız, həmçinin hər faylı da yükləmək olmaz. Bundan başqa, gələn e-mailləri diqqətli analiz etmək tövsiyyə edilir. Son illərdə yemləmə (phishing) üsulundan ən çox e-maillərdə istifadə olunur. Apple, Microsoft kimi şirkətlərin adından istifadə edərək kiber cinayətkarlar yalan məlumatların olduğu e-maillər ilə istifadəçiləri aldadırlar. Ona görə də e-mailləri cavablamadan öncə göndərən mail adresinə diqqətlə baxmaq lazımdır.



**Osman Gündüz,**
Azərbaycan İnternet Forumunun prezidenti

■ **Məsələyə münasibət bildirən Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz deyir ki, kibertəhlükəsizlik məsələsi ümumi informasiya təhlükəsiziliyinin tərkib hissəsidir:** "Bir müddət öncə Prezident rəqəmsallaşma və innovasiyalar sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında fərman imzalayıb. Bu fərman əsasında keçmiş NRYTN-da struktur dəyişiklikləri edilib, bir neçə yeni dövlət qurumları yaradılıb. Maraqlıdır ki, dəyişikliyə məruz qalmayan struktur uzun illər fəaliyyəti elə də görünməyən Elektron Təhlükəsizlik Xidməti olub. Bu qurum 2012-ci ildən Prezident fərmanı əsasında Nazirlik tərkibində fəaliyyət göstərir. Əsas məqsədi kibertəhlükəsizlik sahəsində kordinasiya, kibertəhdidlər barədə məlumtlandırma, kibergigiyena və maarifçilik işlərinin təşkilidir. Müşahidələr göstərir ki, qurum indiyədək qarşıya qoyulan vəzifələrin bir çoxunu reallaşdıra bilməyib. Son zamanlar isə hətta iş o yerə çatmışdı ki, bu dövlət qurumunun səlahiyyətlərini açıq-aşkar digər dövlət qurumları həyata keçirməyə başlamışdı. Bir müddət öncə, Nazirlikdə aparılan kadr islahatları çərçivəsində Elektron Təhlükəsizlik Xidmətinin rəisi də yarıtmaz fəaliyyətinə görə tutduğu vəzifədən azad olunub və onun yerinə bu sahədə daha çox təcrübəsi olan, uzun illər Azercell-də çalışan Şahin Əliyev təyin edilib. Görünən odur ki, Elektron Təhlükəsizlik Xidməti hələlik kompüter insidentləri ilə mübarizə mərkəzlərinin (CERT) kordinasiyasını gerçəkləşdirə bilməyib. Əhalinin rəqəmsal savadlılığının artırılması sahəsində ciddi problemlər qalmaqdadır. Son zamanlar e-mail, SMS və ya zənglər vasitəsilə həyata kçeirilən kiberhücumlarla vətəndaşların bank hesablarının və sosial media hesablarının ələ keçirilməsi bir daha onu göstərdi ki, bu sahədə profilaktika olduqca zəifdir. Düşünürəm ki, sektorda diqqət yetiriləcək məsələlər hədsiz çoxdur.

Uzun müddətdir ki hazırlanmaqda olan "İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizliklə bağlı Strategiya" indiyədək də müzakirəyə çıxarılmayıb. Bundan başqa, qeyri-dövlət sektorunda kibertəhlükəsizlik sahəsində metodiki-informasiya dəstəyinin təşkili effektiv qurulmayıb və əlçatanlığı yetərli deyil. Elektron Təhlükəsizlik Xidməti maraqlı tərəflərlə əməkdaşlığı gücləndirməlidir. Bloklanan saytlarla bağlı, "İnformasiya, informasiyalaşama və informasiyanın mühafizəsi haqqında" qanun əsasında yaradılması nəzərdə tutulan "Qara siyahı" indiyədək də aktiv deyil. Ümumiyyətlə, düşünürəm ki, ETX-in, saytların bloklanması sahəsində normal, şəffaf bir tənzimləmə mühiti yaratması çox faydalı olardı. Eyni zamanda, məhkəmə qərarı ilə və belə bir qərar olmadan bloklanan saytlar, məhkəməyə olan müraciətlər, Nazirliyə bloklanma ilə bağlı daxil olan müraciətlər, xəbərdarlıq olunan saytlarla bağlı məlumatlar, bloklanmadan çıxarılan resurslarla bağlı məlumatlar üçün ayrıca bir resurs formalaşdrımalıdır.

Ümid edirəm ki, sözügedən Xidmətin yeni rəhbərliyi tezliklə ölkənin kibertəhlükəsizlik sektorunda ciddi dönüş yaradacaq və mövcud çatışmazlıqların aradan qaldırılmasına töhfə verəcək".

### Yeri gəlmişkən...

**Azərbaycan kibertəhlükəsizliyə görə dünya ölkələri arasında mövqeyi son iki ildə 15 pillə yaxşılaşaraq 40-cı, MDB regionunda isə bir pillə yüksələrək 3-cü yerdə qərarlaşıb.**

Bu barədə Beynəlxalq Telekommunikasiya İttifaqının (ITU) hər il yaydığı "Qobal Kibertəhlükəsizlik İndeksi"nin (The Global Cybersecurity Index - GCI) 2020-ci il üçün buraxılışında qeyd edilib. Hesabata görə, Azərbaycan mümkün 100 baldan 89,31 bal toplayıb ki, bu da 5 kateqoriya üzrə hesablanıb. Belə ki, rəsmi Bakı leqal ölçmələr üzrə 20, texniki ölçmələr üzrə 19,19, təşkilatçılıq üzrə ölçmələrdə 13,14, potensialın inkişaf etdirilməsi üzrə 16,99 və kooperativ ölçmələr üzrə isə 20 bal toplayıb.

✍ ***Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

İnformasiya və Kommunikasiya Texnologiyalarının inkişaf etdirilməsi

## XƏBƏRİNİZ OLSUN...



■ Azərbaycanla İran arasındakı aşkar gərginlik mərhələsi başa çatıb. Bunu İranın xarici işlər naziri Hüseyn Əmir Abdullahian oktyabrın 27-də Tehranda Əfqanıstanın qonşularının toplantısının yekununa həsr edilən mətbuat konfransında bildirib.

■ Gələn il Azərbaycanda əmək qabiliyyətli əhali üçün yaşayış minimumu 215 manat olacaq. 2021-ci ildə əmək qabiliyyətli əhali üçün yaşayış minimumu 207 manat olub. Başqa sözlə, əmək qabiliyyətli əhali üçün yaşayış minimumu 3,8 faiz artırılır.

■ Gələn il Azərbaycanda uşaqlar üçün yaşayış minimumu 189 manat olacaq. 2021-ci ildə uşaqlar üçün yaşayış minimumu 175 manat olub.

■ Gələn il Azərbaycanda pensiyaçılar üçün yaşayış minimumunun həddi 173 manat olacaq. 2021-ci ildə pensiyaçılar üçün yaşayış minimumunun həddi 162 manat olub.



■ 2022-ci ilin dövlət büdcəsində yaşayış minimumunun həddi 205 manat məbləğində müəyyən ediləcək. Bu da 2021-ci illə müqayisədə 9 manat çoxdur. 2021-ci ildə yaşayış minimumu 196 manat olub.

■ 2022-ci ildə Azərbaycan dövlət büdcəsindən kənd təsərrüfatı sektoruna 997,305 mln. manat xərclənəcəyi müəyyən edilib. Sözügedən məbləğ proqnozlaşdırılan büdcə xərclərinin 3,3%-ni təşkil edir.

■ Gələn il dövlət büdcəsindən televiziya, radio və nəşriyyata ayrılacaq vəsait məlum olub. Gələn il dövlət büdcəsindən televiziya, radio və nəşriyyat xərcləri üçün 54 155 734, 0 manat ayrılacaq.

■ Gələn il Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) dövlət büdcəsinə transferti 12,71 mlrd. manat təşkil edəcək ki, bu da 2020-ci ilin göstəricisi ilə müqayisədə 4,2% çoxdur. Ötən il ARDNF-nin dövlət büdcəsinə transferti 12,2 mlrd. manat təşkil edib.



■ Gələn il dövlət büdcəsindən səhiyyə sahəsinə 1 788 619 634,0 manat vəsait ayrılacaq. Bu vəsaitdən 1 664 544,0 manatı poliklinika və ambulatoriyalara, 171 143 669,0 manatı xəstəxanalara, 2 588 726, 0 manatı səhiyyə sahəsində tətbiqi tədqiqatlara, 1 613 222 695, 0 manatı səhiyyə sahəsində proqramlar və digər xidmətlərə ayrılacaq.

■ Gələn ilin dövlət büdcəsindən təhsil xərclərinə 3 884 325 660,0 vəsait ayrılıb. Məktəbəqədər təhsil xərcələri üçün 376 858 452,0; ümumi təhsil üçün 2 090 153 867,0; peşə təhsili üçün 63 815 388,0; orta ixtisas təhsili ümün 87 300 596,0; ali təhsil üçün 59 987 844,0; əlavə təhsil üçün 3 937 523,0; təhsil sahəsində tətbiqi tədqiqatlar üçün 7 015 701,0; təhsil sahəsində digər müəssisə və tədbirlər üçün isə 1 195 258 291,0 manat vəsait ayrılıb.

# Pensiya Fonduna yığılan vəsaitlər

◂ əvvəli 1-ci səhifədə

Məsələn, yaş həddinin 65-ə çatdırılması Azərbaycanda orta pensiya dövrünün 6 ilə qədər azalmasına gətirib çıxarır. Dünya təcrübəsindən misal gətirsək, fərq Yaponiyada 22 il, Almaniyada 20 ildir. Orta ömür Yaponiyada 89 ildir, pensiya yaşı isə 67-dir. Ölkəmizdə orta ömür 71 ildir, pensiya yaşı 65-dir. Bu orta ömür nisbətində pensiya yaşının artırılması pensiyaya çıxma hüquqlarını əhəmiyyətli dərəcədə məhdudlaşdırdı".

### Özəl pensiya fondlarının olması rəqabət yarada bilər

**Ekspert həmçinin qeyd edib ki, valideynlərdən birinin itirilməsi halında da varislər üçün müəyyən hüquq yaranır: "Bu zaman kapital ötürülmür.**

Sadəcə olaraq pensiya alma hüququ ötürülür və bu 18 yaşına qədər uşaqları olan ailələrə, 23 yaşına qədər uşaqları olan və ali məktəbdə əyani təhsil alan ailələrə verilir. Vər hər bir fərdə uyğun nisbətləşdirilir.Yəni, ailədə 1 uşaq var, 2 uşaq var və s. Dünya təcrübəsində burda əslində iki mexanizm var. Həm dövlət, həm də özəl pensiya fondları.

Dövlət pensiya fondlarında toplanmış vəsaitin müəyyən bir qisminin varislik hüququ yolu ilə ötürülməsi daha çox tətbiq olunur. Məsələn, 70-80 faizinin yaxud 50 faizinin ötürülməsi tətbiq edilir. Özəl pensiya fondlarında isə bu məsələ müqavilə şərtləri ilə tənzimlənir və əksər hallarda da müqavilədə məhz 100 faiz həcmində varislik huququna ötürülməsi məsuliyyətini üzərinə götürür.

Burada sadəcə bəzi məqamlar olur ki, bu zaman pensiyaçı daha yüksək faizlər tələb edir yaxud da daha qısa zaman müddətində pensiya hüququ istəyir. Tutaq ki, vətəndaş var ki, 45 yaşda, vətəndaş var 65 yaşda pensiyaya çıxmaq istəyir. Əgər vətəndaş daha yüksək faizlə vəsaitdən əlavə yığım istəyirsə, bu zaman bəzi hallarda varislik hüququna müəyyən güzəştlər etməli olur. Məsələn, bu zaman 100 faiz deyil, 80 faiz varisə ötürülmə hüququ yaranır. Düzdür, burada böyük risk alınır. Amma böyük ehtimalla insanlar adətən düşünür ki, onlar yaşayacaqlar, ona görə də riski nəzərə alır və daha çox faizə razılıq verirlər".

### Hökumət birdəfəlik ödəmə mexanizmində maraqlı deyil

**R.Həsənov onu da vurğulayıb ki, hazırda pensiyaçının fonda toplanmış vəsaiti birdəfəlik ödəmə şəklində əldə etmək hüququ Azərbaycanda yoxdur.**

Onun sözlərinə görə, bu təcrübədən Azərbaycan da istifadə edə bilər: "Almaniyada, qonşu Türkiyədə belə təcrübə var. Çox yaxşı təcrübədir. Məsələn, əksər ölkələrdə insanlar yaşadıqları yerdə işləməyə üstünlük verirlər və adətən pensiyaya çıxandan sonra mənzil alırlar. Və əksər hallarda onların aldıqları birdəfəlik ödənişlər mənzilin xərcinin ya əhəmiyyətli hissəsini, ya da tamamını bağlayır. Yəni, o qədər ciddi ödənişdən söhbət gedir. Təbii ki, bizdə də birdəfəlik ödəniş mexanizmi tətbiq oluna bilər. Amma məsələ ondan ibarətdir ki, bu gün əmək pensiyasının mexanizmi daha çox Sosial Müdafiə Fondunun yığımları ilə onun ödənişləri arasında fərqin çox olmaması üzərində qurulub. Yəni, əksər hallarda Fond dövlət tərəfindən subsidiyalaşdırılır. Hökümət də çalışır ki, Fonda çox subsidiya verməsin və xərclərlə gəlirlərin optimallaşdırılması məsələsi gündəmdə olduğu üçün hökümət yığımın vətəndaşa qaytarılması prosesinin daha uzunmüddətli həyata keçirilməsində maraqlıdır. Ona görə də birdəfəlik ödəmə mexanizmi fərqli platformalarda bu günədək müzakirə olunsa da, son həllini tapmır. Bunun üçün həm də qanunvericilik bazasının təkmilləşdirilməsi zəruridir".

### Yığımın birdəfəlik alınması sosial sığorta prinsiplərinə ziddir

■ **Mövzu ilə bağlı fikirlərini hafta.az-la bölüşən Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədr müavini Məlahət Ibrahimqızı isə bildirib ki, hazırda birdəfəlik ödəmə mexanizmi beynəlxalq təcrübədə kimi istifadə edilmir:** "Birdəfəlik ödəmə mexanizmi əvvəllər bəzi inkişaf etmiş ölkələrdə bir qədər çox tətbiq olundu. Hazırda bu beynəlxalq təcrübə kimi və ya bir standart kimi istifadə edilmir. Çünki, ölkələr iqtisadi gücünə görə müxtəlifdir və bu mənada sosial sığortaya əsaslanan pensiya sistemində belə bir mexanizm tətbiq edilmir.

Şəxsin hesabında yığılmış pensiya kapitalının pensiya yaşına çatdıqda birdəfəlik alınması bir tərəfdən sosial sığorta prinsiplərinə ziddir, digır tərəfdən də idarəedilməsi mümkün olmayan pensiya sistemini stimullaşdıra bilər. Bəzi ölkələrdə tətbiq edilən sözügedən mexanizm əsasən pensiya kapitalına deyil, peşə birliklərinə ödənilmiş sığorta vəsaitlərinin birdəfəlik alınmasına aid olur. Müsbət beynəlxalq təcrübəyə uyğun olaraq, Azərbaycan pensiya qanunvericiliyi pensiya vəsaitlərinin gözlənilən pensiya yaşı müddətindən başlayaraq aylar üzrə hissə-hissə və hər il indeksləşdirilməklə ödənilməsini nəzərdə tutur".

Millət vəkili onu da vurğulayıb ki, vəfat etmiş şəxsin ödənilməmiş pensiyası Mülki Məcəlləyə uyğun olaraq, vərəsəliyin müəyyən edilməsi ilə birdəfəlik ödənilir. Eyni zamanda, ailə başçısını itirməyə görə pensiya hüququ olan şəxslər (Qanunun 14-cü maddəsi ilə müəyyən edilir) vəfat etmiş şəxsin pensiyası və ya əmək haqqı əsasında pensiya tələb etmək hüquqları vardır".

✍ ***Sevinc***

# Qubadlıda evimizi dağıdıb tövləyə çeviriblər

***Qubadlı rayonunun erməni işğalından azad olunduğu günləri yaşayırıq. Dünən Qubadlı ziyalıları, ictimai-siyasi xadimləri Prezident, Ali Baş Komandanın iştirakı ilə Qubadlını ziyarətə getdilər. Bu ziyarətdə Azad Qubadlının 1 yaşı qeyd olundu. Belə bir günlə bağlı Azərbaycan insanlarının, qubadlılıların acılı-şirinli sonsuz təəssüratları, öz vətənləri haqqında tükənməyən dilləkləri, arzuları yenidən doğulur, yenidən cücərir... Bu barədə hafta.az-a müsahibə verən AMEA-nın müxbir üzvü, Qubadlı şəhərində doğulub boya-başa çatmış ziyalımız İlham Şahmuradov maraqlı, kövrək məqamlara diqqət çəkib.***



**İlham Şahmuradov,**
AMEA-nın müxbir üzvü

> Oxuduğum orta məktəb, ümumiyyətlə, yerli-dibli dağıdılıb. Təkcə binaları deyil, bütün ağacları da məhv ediblər

## Qayıdış

***- İlham müəllim, Qubadlı azaddır! Bütün qubadlılıların gözü aydın olsun. Gəlin, Qubadlının geridə qalan işğal tarixinə və bugününə diqqət çəkək. O zaman Qubadlı niyə işğal olundu və bir il əvvəl necə azad edildi?***

- Əvvəla, onu qeyd edim ki, bu gün ölkə başçısı başda olmaqla Qubadlıya səfər etdik. İndi yoldayıq... Çox xoş təəssüratlarımız var...

Qubadlı öz-özünə işğal olunmadı. 1990-cı illərin əvvəllərində Azərbaycanda nizami ordu yox idi. Ölkədə hərc-mərclik hökm sürürdü. Digər tərəfdən, düşmənlərimiz regionda marağı olan digər dövlətlər tərəfindən himayə olunurdu.

Erməni quldurları himayədarları tərəfindən silahlandırılırdı, bizdə isə silah yox idi. Bizim camaat, demək olar ki, qaniçən düşmənlə əliyalın vuruşurdu. O vaxt silahımız, ordumuz olsaydı, torpaqlarımız işğal edilməzdi. Qubadlını qoruya bilərdik, ancaq arxada Cəbrayılı itirəndən sonra biz mühasirədə qalırdıq. Ona görə də məcburən belə qərar verildi ki, Qubadlı camaatı çıxmalıdır. Belə olmasaydı Qubadlı da Zəngilan kimi mühasirədə qala bilərdi.

Məlumdur ki, o vaxt Zəngilan mühasirədə qalanda camaatı Araz çayından İran tərəfdən çıxardılar. Qubadlının işğal olunmasına səbəb bu idi. Qubadlı son ana qədər döyüşürdü. Biz təkcə Qubadlını yox, Laçının kəndlərini də qoruyurduq. Qubadlının igid oğullarına torpağın işğal olunması asan başa gəlməyib. Qubadlılılar qəhrəmancasına vuruşub, şəhid, qazi olublar. Ölkədə siyasi, hərbi vəziyyətin natamamlığı üzündən Qubadlı camaatının geriyə çəkilməsi qərara alınmışdı.

Bunun üzərindən 27 il keçdikdən sonra, ölkə Prezidentinin 44 gün ərzində yox, 17 il apardığı çoxlarının görə bilmədiyi o siyasət, atdığı addımlar nəticəsində torpaqlar azad olundu. Nəhayət, elə bir məqam gəldi ki, ölkə başçısı torpaqların təkcə danışıqlar yolu ilə azad edilməsinin mümkün olmadığını bəyan etdi. Ordumuz düşmənə cavab verməyə qadir olandan sonra əmr verildi, torpaqlar qısa müddətdə azad edildi. Torpaqlarımız, elə Qubadlımız Ali Baş Komandanın komandanlığı, qəhrəman əsgərlərimizin rəşadəti nəticəsində azad oldu.

***- Dediniz ki, Prezidentin iştirakı ilə Qubadlını ziyarət etdiniz, 27 ildən sonra doğma, azad torpağa getmək necə bir hiss idi?***

- ...Bu elə bir hissdir ki, onu cümlə ilə təsəvvür etmək çox çətindir. 27 il yuxularımda gördüyüm, uşaqlığımın keçdiyi o yerləri yenidən gördüm.

Qubadlı işğal olunmazdan 1 ay əvvəl orada olmuşam. 1993-cü ilin iyun ayında Qubadlıda idim, avqustun 31-də çıxdım. Oradan çıxanda artıq müdafiə etmişdim, elmlər namizədi idim. 36 yaşım var idi. Ailə qurmuşdum, 2 övladım var idi. 28 il idi Qubadlını görmürdüm...

Qubadlı şəhərinin özündə doğulmuşam, orada boya-başa çatmışam, orta məktəbi qurtarıb, Bakı şəhərində ali məktəbə daxil olmuşam...

Mən öz doğma evimizin dağıntılarını gördüm. Evimizi dağıdıb, bir tövləyə çeviriblər. Oxuduğum orta məktəb, ümumiyyətlə, yerli-dibli dağıdılıb. Təkcə binaları deyil, bütün ağacları da məhv ediblər. Dünyada ikinci belə vəhşi millət olmaz. Bunlar nəinki insanları, tikililəri, ağacları da məhv ediblər. Belə bir ağır təəssüratlarım var. Eyni zamanda da sevinirik, xoşbəxtik ki, nəhayət, o doğma torpağa ayağımız dəydi...

...Qubadlıya getdik. Bu gün Qubadlıya yolumuz, səfərimiz çox rahat keçdi.

Orada cənab Prezident və Mehriban xanımla görüş keçirildi. İndi sizinlə Qubadlı səfərindən qayıdarkən yolda danışıram. Deyim ki, Qubadlıda salamat yer qalmayıb. Ölkə Prezidenti çıxışında bu məsələlərə toxundu və rayonun tezliklə bərpa olunacağını söylədi. Prezident dedi ki, Qubadlı tamam başqa formatda, müasir standartlara uyğun şəkildə yenidən bərpa olunacaq. Onda da qayıdıb rayonumuzda işləyəcəyik.

***- Hər birinizi təbrik edirəm. Sizcə, Qubadlının azad olunması, hansı rayonların yolunun açılması idi?***

- Cənab Prezident çıxışında özü də bu məsələni qeyd etdi. Dedi ki, Qubadlı alınandan sonra artıq Laçına yol açıldı. Laçının aşağıdakı kəndlərini biz götürdük və bu da ermənilər üçün böyük zərbə oldu. Qubadlının alınmasının əhəmiyyətini cənab Prezident bu cür ifadə elədi. Laçın koridoruna nəzarət etdik, Laçının kəndləri azad olundu, sonra müəyyən danışıqlar aparıldı və ermənilər kapitulyasiyaya imza atdılar, müharibə qurtardı. Məncə, bundan gözəl cavab ola bilməz...

***- Torpağı işğal olunan insanlarımız siyasi maraqların rol aldığı bu bölgəyə diqqət çəkib işğaldan danışarkən, bir də "torpaqlar verildi" ifadəsini də işlədir...***

- Mən torpaqların "verilməsi" fikri ilə birmənalı olaraq razı deyiləm. Bu barədə konkret şəkildə danışmaq mümkün deyil. Bu torpaqları heç bir Azərbaycanı sevən vətəndaş, siyasətçi verə bilməzdi və vermədi. Aydın məsələdir ki, Azərbaycan Ordusu nizamsız, yox dərəcəsində idi. Siyasi hərc-mərclik, özbaşınalıq var idi. Ordumuz başsız idi. Kənar dövlətlərdən ciddi dəstəyimiz yox idi.

Məlumdur ki, erməni təklikdə bizimlə bacarmazdı, bunu hamı bilir. Bir yandan da İran, Rusiya da Ermənistan dəstək verirdi. Bizim camaatın ov tüfəngini əlindən alıb erməniləri silahlandırmışdılar. Bir tərəfdən də ordumuz o qədər də böyük deyildi. Hər tərəfi - Zəngilanı, Füzulini, Laçını, Şuşanı qoruya bilsin. Cəbrayıl, Füzuli işğal olunandan sonra arxada Qubadlının bir yolu qalmışdı. Səbəblər bu idi. Yoxsa, kimsə Qubadlını vermədi. Qubadlı camaatı çıxmasaydı, mühasirədə qala bilərdi və Xocalı soyqırımı təkrar olunardı. Qubadlı verilmədi, Qubadlı camaatı çıxdı...

"Torpaqlar verildi" ifadəsi işlənəndə bu, xalqımızın, elə Qubadlı camaatının heysiyyatına toxunur. Həmişə inanırdıq ki, torpağımıza qayıdacağıq. Fakt budur ki, Azərbaycan xalqı öz zəfərini qazandı. Erməni vandalları, artıq bizə qarşı heç bir iddia ilə çıxış edə bilməzlər.

***- Müharibədən bir il ötür. Qubadlı azaddır. Azərbaycanın Dəmir Yumruğu var və diplomatik mübarizəmiz davam edir. Bundan sonra nə etməli, hansı addımları atmalıyıq?***

- Qubadlıda o Dəmir Yumruğu yenə də gördük. Bu gün üçtərəfli atəşkəs bəyanatı ilə regionda sülh əldə olunub. Əgər ermənilər, Ermənistan buna tabe olmaq istəməsə, Dəmir Yumruq yerindədir və hər an döyüşə hazır olmalıyıq.

...Qubadlılılara deyirəm: gözünüz aydın, ay qubadlılılar! Allah şəhidlərimizin ruhunu şad eləsin, qazilərimizə cansağlığı versin. Kimin bu işdə əməyi varsa, hər birinə minnətdarıq Hər kəs Qubadlıya getmək istəyir. Prezident bu gün dedi ki, rayon bərpa olunacaq, hamı öz yurduna dönəcək...

*Tahirə*

***Bir il əvvəl Azərbaycan Ordusu elə bir tarixi zəfərə imza atdı ki, biz bundan sonra yalnız qələbə günlərini, tarixi torpaqlarımızın işğaldan azad olunduğu günləri qeyd edəcəyik. Ötən gün Qubadlının azad olunmasından bir il ötdü. Qubadlının işğaldan azad olunması Azərbaycan Ordusunun Laçına, oradan isə Şuşaya gedən yolunu açdı.***



**Könül Nurullayeva,**
millət vəkili

# Qubadlıda bərpa prosesi sürətlə aparılır

Nəzərə alsaq ki, Qubadlı Ermənistanla sərhəddə yerləşir və düşmən burada 30 il ərzində istehkamlar quraraq möhkəmlənmişdi, bu mənada Qubadlı uğrunda gedən döyüşlər kifayət qədər ağır döyüşlər idi. Müzəffər Azərbaycan Ordusu bu döyüşdə də uğur qazanaraq, düşmənin bütün hədəflərini məhv etdi və Qubadlı 27 illik əsarətdən sonra azadlığına qovuşdu.

> Bu görüşlərdə əsas diqqət çəkən məqamlardan biri də dövlət başçımızın azad edilmiş rayonların ictimaiyyəti ilə yerində görüşlər zamanı şəhid ailələrinin üzvlərinə, müharibə iştirakçılarına xüsusi münasibət sərgiləməsidir

■ **Bu fikirləri hafta.az-a açıqlamasında millət vəkili Könül Nurullayeva deyib. Onun sözlərinə görə, Qubadlının azad olunmasının bir ili münasibətilə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ənənəyə sadiq qalaraq, azad olunmuş ərazilərimizə səfər etdi. Yerli ictimaiyyətlə görüşdə hazırda Qubadlıda görülən işlər və gələcək planlarla bağlı dövlət başçısı mühüm mesajlar verdi:**

"Ali Baş Komandan İlham Əliyev bir daha bəyan etdi ki, biz qurucu xalqıq və Qubadlını yenidən quracağıq. İşğaldan azad olunmuş bütün ərazilərimizi, o cümlədən Qubadlını da cənnətə çevirəcəyik. Son bir il ərzində Qubadlıda həyata keçirilən bərpa-quruculuq işlərinə gəlincə, ilk növbədə Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissə kompleksinin açılışını qeyd etməliyik.

Bu, ilk növbədə Azərbaycanın öz sərhədlərində möhkəmləndiyini göstərir. Yeni kompleksin döyüş texnikası parkında müasir silah sistemlərinin mövcudluğu isə Azərbaycanın hərbi qüdrəti və sərhədlərimizin etibarlı qorunmasının göstəricisidir.

Digər azad edilmiş torpaqlarda olduğu kimi Qubadlıda da quruculuq, bərpa işləri, müasir nəqliyyat, enerji və s. sosial-iqtisadi infrastruktur layihələri icra olunmaqdadır. "Qubadlı" yarımstansiyası da daxil olmaqla artıq azad olunmuş bölgələrimizdə 7 yarımstansiya istifadəyə verilib ki, bu da işğaldan azad edilmiş ərazilərin 80 faizinin artıq Azərbaycanın ümumi enerji sisteminə qoşulması deməkdir. Xanlıq-Qubadlı avtomobil yolunun tikintisi isə infrastruktur işlərinin birinci sırada olduğunu göstərir. Prezident İlham Əliyevin də söylədiyi kimi, indi biz Zəngilandan Qubadlıya, Laçına dördzolaqlı yol çəkirik ki, bu yoldan insanlar rahat istifadə etsinlər. Eyni zamanda burada istehsal olunacaq məhsulları bazarlara vaxtlı-vaxtında, itkisiz çatdırmaq üçün imkan olsun. Üstəlik, Qubadlı böyük potensiala malikdir, zəngin təbiəti, təbii sərvətləri vardır. Həkəri, Bazarçay, Bəsitçay və Tərtər çayı vasitəsilə biz su resurslarımızdan da səmərəli istifadə etmək imkanı qazandıq. Ən əsas məsələ ilə Qubadlı sakinlərinin də bu bölgəmizin inkişaf konsepsiyasında yaxından iştirak etməsidir.

Bu görüşlərdə əsas diqqət çəkən məqamlardan biri də dövlət başçımızın azad edilmiş rayonların ictimaiyyəti ilə yerində görüşlər zamanı şəhid ailələrinin üzvlərinə, müharibə iştirakçılarına xüsusi münasibət sərgiləməsidir. Prezident ilham Əliyev və birinci xanım Mehriban Əliyevanın Qubadlı ictimaiyyətinin nümayəndələri ilə səmimi söhbətləri, ümumiyyətlə, şəhid ailə üzvlərinə yüksək səviyyəli ehtiram cəmiyyət tərəfindən də rəğbətlə qarşılanır".

*Azad*

## Bərpa

# Azad edilmiş ərazilərə yüz milyard investisiya yatırıla bilər

***Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə ardıcıl səfərləri və yeni infrastruktur layihələrinin təməlinin qoyulması bölgənin qısa zamanda Azərbaycanın ən inkişaf etmiş iqtisadi zonalarından birinə çevriləcəyini söyləməyə əsas verir. Zəngilan, Füzuli və Qubadlı səfərləri bu baxımdan daha çox diqqəti cəlb edir. "İşğaldan azad olunmuş torpaqlarda, o cümlədən Zəngilan və Qubadlıda kənd təsərrüfatının, turizmin, alternative enerjinin inkişafı üçün yüksək potensial var.***

> Yenidənqurma prosesinə dünyanın aparcı şirkətlərinin cəlb olunması istiqamətində də işlər aparılması vacibdir



> Qarabağdakı meyvə məhsullarını xarici ölkələrə aparmaq üçün hava limanı birbaşa əlaqə deməkdir

Çünki işğaldan əvvəl bu ərazilərdə heyvandarlıq, bitkiçilik, turizm fəaliyyəti geniş yayılmışdı. Bundan əlavə həmin ərazilərdə faydalı qazıntılar, filiz yataqları, mineral su ehtiyatları mövcuddur. Həmin ehtiyatlardan istifadə etmək uçun böyük potensial mövcuddur".

■ **Bu fikirləri hafta.az-a açıqlamasında iqtisadçı-ekspert Akif Nəsirli bildirib. Ekspert vurğulayıb ki, işğal dövründə ermənilər həmin ərazilərdə mövcud olan istər filiz yataqlarını, istərsə də mineral su ehtiyatlarını istismar ediblər:** "Məsələn, Zəngilan rayonunun Vejnəli kənd inzibati ərazisində yerləşən qızıl yatağını ermənilər xarici şirkətlərlə qanunsuz şəkildə istismar ediblər. Eləcə də mövcud mineral su ehtiyatları qablaşdırılaraq erməni məhsulu adı altında xaricə idxal olunub. Yəni, bu ərazilərin kifayət qədər geniş potensialı var.

Bu torpaqların azad olunması kənd təsərrüfatı sahəsi üçün də yeni imkanlar yaradır. Məsələn, bizdə ərzaq buğdasına olan tələbatın cəmi 50-60 faizi yerli istehsal hesabına qarşılanır. İndi yeni imkanlar yaranıb və istər Qubadlıda, istər Zəngilanda, istər Füzulidə, istərsə də Ağdamda, eləcə də digər ərazilərdə bu il daha geniş ərazilərdə ərzaq, yem buğdası əkilib. Digər tərəfdən, İsrail bu ərazilərdə camış ferması yaratmaq niyyətindədir. Bu ölkəmizin kənd təsərrüfatına böyük tövhə verə bilər. Çünki bir insanın südə olan tələbatı illik 400 litr olsa da, biz ancaq 200 litrə qədər istehsal edə bilirik. Qalan hissəni isə xaricdən idxal edirik. Yəni, həmin ərazilərdə camış fermasının açılması ölkədə süd istehsalının artmasına böyük fayda verə bilər. Bu baxımdan hazırda həmin ərazilərdə aparılan yenidənqurma işləri gələcəkdə ölkə iqtisadiyyatına böyük tövhə verəcək".

A.Nəsirli onu da qeyd edib ki, yenidənqurma prosesinə dünyanın aparcı şirkətlərinin cəlb olunması istiqamətində də işlər aparılması vacibdir: "Biz işğaldan azad edilmiş ərazilərin bərpasına daha az vəsait xərcləməklə, daha yüksək gəlirli infrastruktur yaratmaq istəyiriksə, bu prosesə dünyanın öncül investorlarını cəlb etməliyik. Hazırda xarici şirkətlər həmin ərazilərdə Azərbaycan hökumətinin sifarişlərini yerinə yetirməklə pul qazanmaq fikrindədir. Bunu xarici şirkətləri Qarabağa investisiya qoyması kimi dəyərləndirmək mümkün deyil. Hər hansı bir şirkət bir körpünün, yolun və ya tunelin tikintisini tenderdə udur, udduğu layihəni icra etdikdən sonra işini bitmiş hesab edir. Bu, hər hansı bir şirkətin əraziyə investisiya qoyuluşu sayılmır. İnvestisiya qoyuluşu o deməkdir ki, hər hansı bir şirkət ərazidə iş qurub, pul qazanmaq istəyir. Məsələn, brendə sahiblənmiş beynəlxalq turizm şirkətlərindən biri Kəlbəcərdə turizm bazası yaratmaq istəyir. Şirkət öz vəsaiti hesabına ona lazım olan bütün infrastrukturu yaradır və öz müştərilərini bu bazaya cəlb edərək gəlir əldə edir. Bu gəliri əldə etmək üçün özünə lazım olan yol infrastruktrunu, kommunikasiyaya və s. sahələrə vəsait xərcləyir. Həmin sahələrdə olan problemləri şirkət öz mənfəəti üçün aradan qaldırsa da, ondan ərazidə yaşayan əhali də bəhrələnir. Digər şirkəti ərazinin kənd təsərrüfatı təyinatı maraqlandırır, üçüncüsünü alternativ və bərpa edilən enerji mənbələri, dördüncüsün faydalı qazıntılar və s. maraqlandırır. Bu maraqlar ərazinin məskunlaşmasına, infrastrukturunun qurulmasına və böyük mərkəzlərin yaranmasına səbəb olur. Hesab edirik ki, Azərbaycan hökuməti işğaldan azad edilmiş ərazilərin qurulması üçün məhz bu üsuldan istifadə etməlidir. Əgər hökumət bu strategiyanı hədəfləsə yaxın on ildə dünyanın böyük şirkətləri işğaldan azad edilmiş Azərbaycan ərazilərinə yüz milyarddan çox investisiya yatıra bilər. Bir daha qeyd edirəm ki, həmin ərazilərin böyük iqtisadi potensialı və cəlbediciliyi var".

■ **"Bu gün işğaldan azad olunmuş ərazilərdə, o cümlədən Zəngilanda, Qubadlıda böyük quruculuq işləri gedir. Artıq görülən işlər öz bəhrəsini verməkdədir və işğaldan azad olunmuş ərazilərdə ilk hava limanı fəaliyyətə başladı. Bu onu göstərir ki, Böyük Qayıdışın başlanması istiqamətində bütün imkanlar səfərbər olunub". Bunu hafta.az-a açıqlamasında iqtisad elmləri doktoru, professor Əli Əlirzayev bildirib.**

Professor qeyd edib ki, böyük tikinti meydanına çevrilən bölgələrdən biri olan Zəngilan rayonu həm də Şərqi Zəngəzur iqtisadi rayonunun qapısıdır, iqtisadi, siyasi-hərbi cəhətdən strateji əhəmiyyət kəsb edir: "Bu rayon müxtəlif növ faydalı qazıntı yataqları, tikinti və sənaye mallarına görə zəngin resurslara malikdir. Bütün bunlar rayonun iqtisadi əhəmiyyətini artırır və xarici investorların marağına səbəb olmaqdadır. Bu bölgələrdə təbii turizm potensialı daha çoxdur. Həm də bu bölgələr sərhədyanı zolaqda yerləşir. Təkcə Bakı şəhərindən deyil, eləcə də dünyanın bir çox ölkələrindən Füzuliyə, Laçına, Zəngilana uçuşlar təşkil edilə bilər. Məhz buna görə də işğaldan azad edilmiş ərazilərdə hava limanlarının inşası gələcəkdə turimzin inkişafı baxımından çox əhəmiyyətlidir. Turizmin inkişafında müstəsna rol oynayan amillər - hava limanları, nəqliyyat yolları və rahat gediş-gəlişdir. Turizm infrastrukturunun yaranması ilə gələcəkdə Qarabağda nə qədər iş yerləri açılacaq. Keçmiş məcburi köçkünlər iş yerləri ilə təmin ediləcək. Digər tərəfdən, hava limanlarının inşası ilə gələcəkdə yükdaşıma imkanları daha da artacaq. Gələcəkdə Qarabağdan və ya Qarabağa yükdaşıma imkanlarının artmasına səbəb olacaq. Ölkənin və dünyanın mərkəzi şəhərlərindən oraya təyyarələr uçacaq. Yükdaşıma Qarabağda kənd təsərrüfatı və iqtisadiyyatın digər sahələri üçün də önəmli amildir. Qarabağdakı meyvə məhsullarını xarici ölkələrə aparmaq üçün hava limanı birbaşa əlaqə deməkdir. Bu, xarici ölkələrlə əlaqələrimizin inkişafına da yeni təkanlar verəcək, hətta sərnişindaşımanın özü də mühüm əhəmiyyət kəsb edir. Qarabağda və Şərqi Zəngəzurda hava limanlarının istifadəyə verilməsi Bakının yükünü azaldacaq. Burada mühüm nəqliyyat əlaqələri formalaşdırılacaq. Füzulidən, Zəngilandan, Laçından Türkiyəyə, Rusiyaya birbaşa reyslər açılarsa, bu əlaqələrin daha da inkişafı deməkdir. Ona görə də əhalinin daşınması, yükdaşıma, xariclə iqtisadi əlaqələrin qurulması və turizmin inkişafı baxımından bu ərazilərdə hava limanlarının istifadəyə verilməsi böyük əhəmiyyətə malik olacaq".

*Sevinc*

# Şuşada yaşamağı çox istəyirəm

## Xüsusi müxbir

***Vətən müharibəsindəki möhtəşəm Zəfərimizin ildönümünü yaşayırıq. Belə bir ərəfədə Azərbaycanın haqq səsinin, həqiqətlərin dünyaya çatdırılması hər birimizin vəzifəsidir. Xüsusilə bu işdə media nümayəndələri daha fəal olmalıdır. "Real TV"nin Avropa bürosunun rəhbəri, jurnalist və ictimai fəal Xatirə Sərdarqızı kimi... Bu günlərdə Niderlandda müsahibimizin müəllifi olduğu Şuşa zəfərindən bəhs edən "28" filminin möhtəşəm təqdimatı keçirildi. Ondan əvvəl isə Haaqa şəhərində beynəlxalq ədalət məhkəməsinin qarşısında soydaşlarımızın aksiyası reallaşdı. Hafta.az-ın "Xüsusi müxbir" rubrikasının qonağı "Real TV"nin Avropa bürosunun rəhbəri, jurnalist və ictimai fəal Xatirə Sərdarqızı ilə bu və digər məsələlərlə bağlı maraqlı söhbətimiz alındı. Buyurun, siz də oxuyun:***

***- Xatirə xanım öncə "28" filminin necə ərsəyə gəlməsi, ideyası barədə məlumat verməyinizi istərdik...***

- Film 28 il sonra Şuşaya qayıdışdan - mənim real həyat hekayəmdən bəhs edir. İdeya olaraq ilk dəfə Şuşada əsgərin mənə evimizi göstərdiyi videogörüntüdən sonra yarandı. 12 yaşımda Şuşadan çıxanda uşaqlığımı orada qoymuşdum. Buna görə də Şuşa üçün yaddaşlarda qalacaq nələr isə etmək istəyirdim. Hazırda Avropada yaşayıram, övladlarım burada böyüyür. Təəssüflər olsun ki, biz unutqan xalqıq. 10 il sonra hamının, xüsusən də gənc nəslin yaddaşından nə vaxtsa torpaqlarımızın işğal edilməsi, soydaşlarımızın qaçqın-məcburi köçkün olması silinə bilər. Ona görə də bu yolla, özümdən sonra xatirə qoymaq istədim. Həm də "28" filmini müxtəlif festivallara göndərərək daha geniş auditoriyaya 12 yaşlı uşağın timsalında Azərbaycan xalqının Qarabağ müharibəsində başına gələnləri göstərmək istəyirik.

***- Bu işdə sizə daha çox kimlər dəstək verdi?***

- Ən böyük dəstəkçim "Ana Vətən" Avropa Azərbaycanlı Qadınlar birliyinin rəhbəri Maisə Ağamirzəyeva və Diasporla İş Üzrə Dövlət Komitəsi oldu. Niderlandda, Haaqa şəhərinin Valliant teatırında 3 gün öncə filmin təqdimatı baş tutdu. Təqdimatda Azərbaycanın Niderlanddakı fövqaladə və səlahiyyətli səfiri Fikrət Axundov, Azərbaycanı sevən niderlanddılar, dost təşkilatlar iştirak etdilər. Təqdimatın ardından onlar bizə yaxınlaşıb necə dərindən sarsıldıqlarını, təsirləndiklərini, bu qədərini təsəvvür etmədiklərini və bundan sonra müharibə gerçəkləri ilə bağlı daha geniş araşdırma aparacaqlarını dedilər. Elə bizim filmi çəkməkdə və onu festivallara göndərməkdə əsas məqsədimiz də o idi ki, geniş auditoriyaya Qarabağ müharibəsi ilə bağlı həqiqətləri çatdıraq.



***- Bir neçə gün əvvəl soydaşlarımızın Haaqada beynəlxalq məhkəmə qarşısında aksiyası keçirildi. Aksiyada qarşıya qoyulan məqsədə nail ola bildikmi?***

- Məlum olduğu kimi, Azərbaycan Ermənistana qarşı irqi ayrı-seçkiliklə bağlı vəsatət qaldırıb. Bu vəsatətlə bağlı məhkəmə prosesi artıq başlayıb. Proses 18-19 oktyabrda 2 gün davam etdi. Biz burada yaşayan azərbaycanlılar olaraq oktyabrın 19-da "Vətənə dəstək" aksiyası üçün 10 saatlıq icazə aldıq. Oraya həm Azərbaycan və erməni tərəfinin nümayəndə heyəti, həm də vəkillər və hakimlər gəlirdilər. Binaya daxil olanların, prosesə qatılanların azərbaycanlıların öz Vətəninə, torpaqlarına necə dəstək olduqlarını görmələrini istədik. Buna görə də 10 saatlıq aksiyaya icazə aldıq. Aksiya insanların məhkəməyə gəldiyi andan etibarən başladı. Orada üzərində "Qarabağ Azərbaycandır" yazısı olan böyük bir çadır da qurduq. İş günü olmasına baxmayaraq, 10 saat ərzində 150-dən çox azərbaycanlı aksiyada iştirak etdi. Biz növbəli şəkildə əlimizdəki plakatlarla aksiyada dayandıq. Nümayəndə heyətimiz də orada idi. Heyətə başçılığı xarici işlər nazirinin müavini Elnur Məmmədov edirdi. Səfirimiz Fikrət Axundov proseslərdə iştirak edirdi. Bütün bunlar baş verən zaman Azərbaycan vətəndaşları dəstəyini göstərmək məqsədilə Haqq və Ədalət Məhkəməsinin qarşısında dayanmışdı. Məhkəmə sona çatdı, hakimlər hər iki tərəfin iddialarını dinlədikdən sonra yaxın zamanda qərarlarını açıqlayacaqlarını bildirdilər. Təbii ki, bu qərar bütün məhkəmə prosesinə aid deyil, təxirəsalınmaz tədbirlərlə bağlı qərarlar veriləcək. Hələlik heç bir xəbər yoxdur.

***- Təxminən, bir il əvvəl Avropanın bir sıra ölkələrində azərbaycanlılar və ermənilər qarşılıqlı aksiyalar keçirirdilər. Siz də aksiyaların birində çox ciddi xəsarət almışdınız. İndiki aksiyalarla 1 il əvvəlki arasında nə fərq var?***

- Düzünü deyim, müharibə zamanı ermənilər daha çox aqressiv idilər. 28 sentyabrda onlar bizim səfirliyin qarşısında aksiya planlaşdırmışdılar. Bizə xəbər gəldi ki, onlar həmin toplanışı təxirə salıblar, yəni artıq əvvəlki kimi deyillər. İndi ermənilərin məğlubiyyətini qalib xalqın nümayəndələri olaraq çox dərindən hiss edirik. Bəzi

> *Bəzi azərbaycanlılar deyirdi ki, iş yerindəki ermənilər müharibədən əvvəl hər içəri daxil olanda bizə yuxarıdan-aşağı baxırdılar*

azərbaycanlılar deyirdi ki, iş yerindəki ermənilər müharibədən əvvəl hər içəri daxil olanda bizə yuxarıdan-aşağı baxırdılar. Ancaq müharibə başlayandan sonra başlarını aşağı salmışdılar. Gözlərini qaldırıb bizə baxa belə bilmirdilər. İndi bizim statuslarımız dəyişib. Onlar hər zaman aqressiv olublar, ancaq indi əvvəlkindən daha sakitdirlər. Bizdən öncə onlar məhkəmə önündə aksiya təşkil etmək istəmişdilər. Gördük ki, aksiyaya yalnız 2 nəfər gəlib, onların da hərəsi bir plakat tutub, 1 saat dayanıb çıxıb getdilər.

Tovuz hadisələrindən sonra xaricdə yaşayan azərbaycanlılar heç vaxt olmadığı qədər sıx birləşdi. Vətənə dəstək deyən kimi, siyasi baxışından asılı olmayaraq, hər kəs bir araya gəlir. Yəni biz cəmləşəndə, yağışa, soyuğa heç nəyə baxmırıq. Mən öz uşaqlarımı uzun yol səbəbi ilə səhər saat 5-dən oyandırıb axşam saat 11-ə qədər orada saxlamışam.

***- Bir il əvvəl belə aksiyalar keçiriləndə Avropa ölkələrində soydaşlarımız çox ciddi əngəllərlə üzləşirdilər. Bəs indi vəziyyət necədir?***

- Ümumiyyətlə, soydaşlarımızın Niderland polisinin yanında çox yaxşı etimadı var. Sizə deyim ki, 10 saatlıq aksiyada polis bircə dəfə günorta gəlib hər şeyin qaydasında olub-olmadığını soruşdu, nəyəsə ehtiyac olsa deməyimizi söylədi. Biz hər zaman aldığımız icazədə nə yazırıqsa, o cür də aksiya təşkil edirik. Məsələn, 27 sentyabrda şəhidləri anma aksiyası çərçivəsində Ədalət sarayının qarşısından Azərbaycan Səfirliyinin qarşısına qədər yürüş etdik. Heç bir problemsiz bizə aksiya üçün icazə verdilər. Ermənilər aksiya təşkil edəndə onların yanına atlarla, velosiped və motosikletlərlə polislər gəlir.




**Xatirə Sərdarqızı,**
"Real TV"nin Avropa bürosunun rəhbəri, jurnalist və ictimai fəal

Həmin millətin şər-xata olduğunu artıq görüblər. Brüsseldə, hətta Hollandiyanın özündə belə bu aqressivliyin şahidi olublar. Mən heç vaxt bürokratik əngəllərlə qarşılaşmamışam. Bir dəfə Tovuz hadisələri vaxtı aksiya üçün bizə 2, ermənilərə 7 saat icazə verilmişdi. Etirazımızı qeyd edəndən sonra, hətta 10 saatlıq belə icazə ala bilirik. Bu aksiyaların təşkili, tədbirlərin keçirilməsi və icazələrin alınması işində "Ana Vətən" Avropa Azərbaycanlı Qadınlar birliyinin rəhbəri Maisə Ağamirzəyevanın fəaliyyəti xüsusi vurğulanmalıdır. Çünki bütün icazə məsələlərini məhz o həll edir, müraciətləri hazırlayır.

***- 44 günlük Vətən müharibəsində qazandığımız qələbənin 1 ili tamam olur. Avropada bu qələbə necə qəbul edilir?***

- Normal insanlar arasında artıq qəbul olunub. Təbii ki, normal dedikdə medianı, yaxud da siyasətçiləri nəzərdə tutmuram. Bura bizim çevrəmiz, qonşularımız, iş yoldaşlarımız daxildirlər. Hətta heyrətlənirlər ki, 44 gün ərzində qələbə çalmışıq. Tarixini belə gedib araşdırırlar. Avropa insanı öz etdiyi müharibəni belə unudandır. Onlar problemlə yaşayan, onu araşdıran insanlar deyilllər. Bəzən deyirdilər ki, "nəyinizə lazımdır müharibə edirsiniz?, biz də müharibə etmişik, ancaq indi sərhədlərimiz belə yoxdur". Başa sala bilmirdik ki, siz 80 il əvvəl müharibə edib bitirmisiniz.

Bizim davamız isə təzədir. Təəssüflər olsun ki, hələ də ikili standartı görürük. Bu da ondan irəli gəlir ki, ermənilər, hətta türklərdən də əvvəl buraya gəldikləri üçün yerli cəmiyyətə dərin inteqrasiya ediblər. Mediada, başqa strukturlarda özlərinə yer tutub, hətta ad, soyadlarını belə dəyişiblər. Yazdığını oxumayınca erməni olduğunu bilmirsən. Ancaq əvvəllə müqayisədə indi mediada yazılan yazılarda bir qədər yumşalma var. Əvvəl daha çox ermənipərəst materiallar verilirdi.

***- Prezident İlham Əliyev Zəngilana son səfərində bəyan etdi ki, 2 həftə sonra Şuşada möhtəşəm zəfər bayramı qeyd ediləcək. Bəs siz öz doğma şəhərinizə nə vaxt səfər etməyi planlaşdırırsınız?***

- Əlacım olsa, gəlib bu dəqiqə orada yaşayaram. Çox istərdim ki, gəlim. Bilirsiniz ki, mən həm də Real televiziyasının Avropa bürosunun rəhbəriyəm. Zəfər bayramı ilə əlaqədar burada da silsilə tədbirlər planlaşdırırıq. Bu həftədən başlayaraq, Brüsselə, Vyanaya səfərlərim olacaq. Bu həm ordumuzun, həm diplomatiyamızın, həm də bütöv Azərbaycan xalqının qələbəsidir. Hamımız 44 gün boyu əlimizdən gələni etdik. O ki qaldı Şuşaya, kaş ki dəvət edərdilər, qanadlanıb gələrdim. Şuşada yaşamağı çox istəyirəm.

***- Avropada xüsusi müxbir olmaq çətin deyil?***

- Çətin deyil. Tək məsələ odur ki, səhəri Brüsseldə açıb gecəni Vyanada sonlandıra bilirsiniz. Evdən bir çıxanda bir də 1 həftə sonra qayıdırsınız. İşimi sevdiyim üçün hətta bundan həzz alıram. Əgər kanalınız sizi dəstəkləyirsə, bu zaman bütün proses asan olur.

***- Aldığınız məvacib sizi qane edir?***

- Təbii ki, etməsə işləməzdim.

***- Avropa və Azərbaycan mediasının müqayisəsini bir də sizdən eşidək...***

- Bizdə media bir qədər fərqlidir. Burada saytlar tam başqa istiqamətdə yazırlar. Azərbaycanda ciddi bir iş görürsən, bunu o qədər də paylaşmırlar. Çox mənasız bir insanın şəxsi həyatını bütün gün reklam edirlər. Burada bütün saytların, xəbər portallarınıpn gündəmi həmin günün hadisəsi ilə tənzimlənir. Televiziyalar da həmçinin Azərbaycandakından olduqca fərqlidir. Burada da tok şoular, açıq-saçıq proqramlar var, daha çox isə xəbər üstünlük təşkil edir. Həm də Avropada kanallar bölünüb. Biri sırf şou yayımlayırsa digəri bunun əksinə, xəbər işi ilə məşğuldur.

***✍ Azad Əliyev***

## Təhsil

***Ötən həftə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qubadlı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə azad edilmiş bütün şəhər-kəndlərimizdə bərpa işləri başa çatandan sonra şəhidlərimizin adına küçələr qoyulacağı, onların adının məktəblərə veriləcəyini bildirmişdi. Ölkə başçısının sözlərinə görə, artıq bu proses başlamışdır: "Ölkəmizin müxtəlif bölgələrində, o cümlədən bu bölgədə - Qarabağ-Zəngəzur bölgəsində bütün bərpa işləri başa çatandan, küçələr salınandan, məktəblər tikiləndən sonra bu da olacaq".***

# Bakı məktəblərindən 129-u şəhid, 37-si Milli Qəhrəman adını daşıyır



Bəs görəsən bu günə qədər ölkənin, xüsusilə də Bakının neçə təhsil ocağında şəhid adları əbədiləşdirilib?

■ **Bakı Şəhər Təhsil İdarəsinin mətbuat katibi Bəşarət Məmmədov hafta.az-a açıqlamasında bildirdi ki, hazırda Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyində fəaliyyət göstərən ümumi təhsil müəssisələrindən 129-u şəhid, 37-si Milli Qəhrəman adını daşıyır:** "Ümumi təhsil müəssisələrinə Milli Qəhrəmanların və şəhidlərin adının verilməsi şagirdlərin vətənpərvərlik tərbiyəsi işinin səmərəli təşkili baxımından rəmzi məna daşıyır və gələcəyimiz olan gənclərə milli ruhun aşılanmasında mühüm əhəmiyyət kəsb edir. Qeyd edək ki, "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydaları"nın 3.1.2- ci bəndinə əsasən Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanı və Azərbaycanın Milli Qəhrəmanı olan, habelə vətən uğrunda döyüşlərə görə ordenlə təltif olunan şəhid adlarının müəssisələrə verilməsi məqsədilə yerli rayon (şəhər) icra hakimiyyəti orqanları Azərbaycan Respublikasının Nazirlər Kabineti qarşısında vəsatət qaldırırlar".

***✍ Banu***

# Azərbaycanın sərhədləri Batum müqaviləsinə əsaslanaraq tanınmalıdır




***Noyabrın 8-9-da Rusiyada keçirilməsi planlaşdırılan üçtərəfli görüşdə yeni sənədin imzalanacağını gözləyirəm. Bu fikirləri hafta.az-a siyasi şərhçi Yasəmən Qaraqoyunlu deyib.***

Y.Qaraqoyunlu hesab edir ki, əgər Ermənistanla-Azərbaycan arasında yeni sülh sazişinin bağlanılmasından söz gedirsə, sərhədlərin demorkasiyası, delimitasiyası gündəmdədirsə, Azərbaycanın sərhədləri Batum müqaviləsinə əsaslanaraq tanınmalıdır.

"Azərbaycan 1918-20-ci illərə qədər olan torpaqlar çərçivəsində Ermənistanın müstəqillyini tanımaldır. Ermənistanın Zəngəzur da daxil olmaqla, 1920-ci ildən 1988-ci ilə qədər SSRİ rəhbərliyinin qərar və qətnamələri ilə Azərbaycandan aldığı bütün torpaqlar tarixi Azərbaycan torpaqlarıdır, bu torpaqları Ermənistana vermək olmaz. Ona görə hətta Azərbayacan hökuməti Ermənistanın ərazi bütövlüyünü tanısa belə, biz Ermənistanda doğulmuş və Ermənistan vətəndaşı olmuş Azərbaycan türkəri bu qərarı və Ermənistanın torpaq bütünlüyünü və sərhədlərini tanımayacağıq. Azərbaycan hökuməti Ermənistanın SSRİ-dən çıxdığı dönəmdə sahib olduğu sərhədləri tanımamalıdır. Bunu tanımaq Azərbaycan tarixinə, Azərbaycan türklərinin iradəsinə ziddir".

Siyasi ekspert Azərbaycan Prezidentinin noyabrın 12-də Türkiyəyə səfər etməsini alqışlayıb. Onun fikrincə, bu səfər Azərbaycan-Türkiyə strateji müttəfiqliyini təsdiq və təsbit edən faktordur.

***✍ Tahirə***



■ **Azərbaycanın işğaldan azad olunmuş ərazilərində vergi güzəştlərinin tətbiq edilməsi məsələsinə baxılır. Bunu iqtisadiyyat Naziri Mikayıl Cabbarov deyib.**

Onun sözlərinə görə, sənaye zonalarının investisiya cəlbediciliyini artırmaq üçün vergi və gömrük təşviqi tətbiq edilir: "Hazırda Azərbaycan Prezidenti tərəfindən təsdiq olunmuş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"inə əsasən, Azərbaycanın 2022-2026-cı illər üzrə ortamüddətli strateji inkişaf strategiyası hazırlanır. Biz gələcəkdə istehsal fəaliyyətinə, investisiya alətlərinə, insan kapitalının inkişafına, turizm sahəsi üzrə, informasiya və kommunikasiya texnologiyalarına və işğaldan azad olunmuş ərazilərdə vergi güzəştlərinin verilməsi məsələsinə də baxırıq".



■ **Qəsdən adam öldürməkdə təqsirləndirilən sabiq birlik komandiri, general-leytenant Rövşən Əkbərovun cinayət işi üzrə məhkəmə prosesi yekunlaşıb.**

Bakı Hərbi Məhkəməsində hakim Həbib Həsənovun sədrliyi ilə keçirilən prosesdə müşavirədən sonra hökm elan olunub. Hökmə əsasən, Rövşən Əkbərov 10 il müddətinə azadlıqdan məhrum edilib. Zərərçəkmiş tərəfin mülki iddiası qismən təmin olunub. R. Əkbərovun zərərçəkmişin hüquqi varisi Fəday Əliyevə 40 min manat məbləğində vəsait ödəməsi barədə qərar qəbul olunub. Məhkəmə təqsirləndirilən şəxsin hərbi rütbəsi və fəxri adlarının alınmasını zəruri hesab etməyib.



■ **Əfqanıstan üzrə məsləhətləşmələrə dair "Moskva formatı"nın alternativi yoxdur. Bu barədə Rusiyanın xarici işlər naziri Sergey deyib. O, Tehrandakı iclasa qatılan ölkələrin nümayəndələrinə Əfqanıstan üzrə məsləhətləşmələrə dair "Moskva formatı"nda fəal iştirak etdiklərinə görə təşəkkür edib.**

Rusiya XİN rəhbərinin sözlərinə görə, "Moskva formatı" öz əhatə dairəsi və məhsuldarlığı baxımından eksklüziv və mübahisəsiz platformadır: "Son vaxtlar Moskva Əfqanıstanla bağlı müxtəlif regional və beynəlxalq forumların fəaliyyətinin aktivləşməsini qeydə alır. Onların bir-birini təkrarlamaması, əksinə bir-birinin işini təbii şəkildə tamamlaması vacibdir. Əminəm ki, bugünkü müzakirə Əfqanıstan xalqının çoxsaylı problemlərinin həlli istiqamətində birgə səylərimizə mühüm töhfə verəcək.



■ **"Qarabağ zəfəri Azərbaycan və Türkiyənin böyük qürurudur, "Bir millət, iki dövlət" anlayışının çox gözəl təzahürüdür". Bunu jurnalistlərə açıqlamasında Dünya Etnospor Konfederasyiyasının Prezidenti Bilal Ərdoğan bildirib.**

B. Ərdoğan qeyd edib ki, dünən Füzuli Beynəlxalq Hava Limanının açılışında iştirak ediblər: "Ondan əvvəlki səfərdə isə Şuşanı ziyarət etmişdik. İşğaldan azad edilən torpaqları gəzən hər kəs görür ki, o torpaqlar 30 il ərzində heç bir toplumun rifahına xidmət etməyib. Bu torpaqların əsl sahibinə - Azərbaycana qayıtmasından sonra qısa müddətdə burada hava limanının istifadəyə verilməsi, yolların sürətlə inşa edilməsi, insanların ora qayıdandan sonra həyatlarını təmin etmək imkanlarının yaradılması çox qiymətlidir.



■ **SOCAR-ın Heydər Əliyev adına Neft Emalı Zavodunda (NEZ) aparılan inşaat və modernizasiya işlərinin hazırkı mərhələsi yekunlaşmaq üzrədir.**

Artıq bir sıra qurğularda, ümumi zavod infrastrukturu və xətlərində ilkin sazlama işlərinə start verilib, istismara buraxılması nəzərdə tutulan boruların təmizlənməsinə başlanılıb. Bu əməliyyatlar sıxılmış hava ilə aparılır və bəzən 4-5 atmosfer təzyiqə yüksəlmiş hava anidən borudan kənara buraxılaraq yüksək səs və gurultu yaradır. Bəzi hallarda isə daha yüksək – partlayışa bənzər səslərin eşidilməsi qaçılmaz olacaq. Bu işlərin 2022-ci ilin ortalarına qədər davam edəcəyi gözlənilir.



■ **Nyu-Yorkun polis həmkarlar ittifaqı şəhər meri Bill de Blazioya qarşı iddia qaldırıb. Bu iddia merin şəhərdə bütün qulluqçular üçün COVID-19-a qarşı zəruri vaksinasiya tələbi ilə bağlıdır.**

Təqribən 24 min zabiti birləşdirən "Nyu-York Polis Xeyriyyə Assosiasiyası" ştatın Ali Məhkəməsinə müraciət edərək həmin mandatın icrasının dayandırılmasını xahiş edib, çünki bu sənəd zabitlərin vaksinasiya olunmaq əvəzinə hər həftə test vermək imkanını məhdudlaşdırır. İddia Nyu-Yorkun çoxsaylı polis işçisi yaşayan beş dairəsindən biri olan Staten-Aylend dairəsində təqdim edilib. Ötən həftə mer de Blazio sərəncam verib ki, Nyu-Yorkun 160 min bələdiyyə işçisinin hər biri noyabrın 1-nə qədər peyvəndlənməsi barədə sertifikat təqdim etsinlər.

# Bakıda dini bayraqlarla yürüşün pərdəarxası

## Təxribat

***Bakı şəhərində dini bayraqlar olan toy karvanı təşkil edilib. Hadisənin ardınca görüntülər qısa zamanda sosial şəbəkələrdə yayılmağa başlayıb. Məsələyə DİN-dən reaksiya gecikməyib. Belə ki, karantin rejimi qaydalarını pozaraq yaşadıqları ünvanda Ağaverdi Balaəhmədov üçün toy şənliyi təşkil edən Ağəli Hüseynzadə və Ağakərim Balaəhmədov saxlanılıb. COVID pasportu olmadan məclisdə iştirak edənlər və toy karvanında avtoxuliqanlıq edən şəxslər də cəzalandırılıblar. Bəs görəsən, belə həssas bir məqamda (Zəfər Bayramının yaxınlaşdığı və İranla münasibətlərin öndə olduğu) bu cür addım nədən xəbər verir? Ümumiyyətlə, bu hərəkətin arxasında hansısa siyasi qüvvələr dayanırmı?***



■ **Mövzu ilə əlaqədar hafta.az-a danışan ilahiyyatçı Əkrəm Həsənov hesab edir ki, bu tip hallar İran tərəfindən xüsusi hazırlanmış "dindar" təbəqəni ölkəmizdə hərc-mərclik salması üçün üzərimizə göndərməsidir:**

"Bu məsələlər, həmçinin hansısa toydan sonra bir qrup özünü dindar hesab edənlərin yürüş keçirməsi həm cinayət əməlidir, həm də bunun İslam dini ilə, şəriətlə yaxından və uzaqdan heç bir əlaqəsi yoxdur. İranın son günlər üzərimizə gəlməsi prosesi bizə düşmən mövqe sərgiləməsinin açıq göstəricisidir. Torpaqlarımızın 30 illik işğal dövründə İran hökuməti bizim tərəfimizdə durmadı. Əgər İran istəsəydi, ermənilərə təzyiq göstərə bilərdi. Əksinə, bəzi qüvvələr ermənilərlə birlikdə bizim işğal zamanı orada qalan evlərimizi, mal-heyvanlarımızı talamaqla məşğul oldular. 44 günlük müharibənin ilk günlərində İran tərəfindən gizli yollarla Ermənistana silah sursat daşındı. İran istəsəydi, o silah-sursatı bizə, müsəlman ölkəyə dəstək üçün göndərərdi. Gec də olsa səhvini anladı".

*"Təxribatçı qruplar əməllərindən uzaq olmalıdır. Təxribata cəhd edən şəxsləri müəyyənləşdirib onlar barəsində ciddi ölçü götürülməsi zəruridir"*

İlahiyyatçı ölkədə belə hallara yol verənlərə qarşı təcili ölçü götürülməli olduğunu xüsusi vurğuladı:

"İndi isə bəzi radikal şiə-rafizi məzhəbli dindarların ölkəmiz əleyhinə qara kampaniya aparılmasına rəvac verilir. Belə hallara yol verən insanların bu çirkin əməllərindən çəkinmələri lazımdır. Ölkəmizdə müharibədən sonra əsas hədəf tutulan doğma torpaqlarımıza qayıdış həyata keçirilir. Biz hamımız bir xalq olaraq, millət olaraq əsas gücü bu işlərə verməliyik. İşğaldan azad olunan doğma torpaqların bərpasına çalışmalıyıq. Ölkədə əmin-amanlığı, sakitliyi qoruyub saxlamağımız lazımdır. Təxribatçı qruplar əməllərindən uzaq olmalıdır. Təxribata cəhd edən şəxsləri müəyyənləşdirib onlar barəsində ciddi ölçü götürülməsi zəruridir. Şəriətə görə də ölkə rəhbərinə qarşı çıxmaq, ölkədə insanları mitinqlərə, küçə yürüşlərinə səsləmək böyük günah və haramdır. İslam xəlifələri, hətta Həzrət Əli özü də hakimiyyəti dövründə özünə qarşı, ölkə rəhbərinə qarşı çıxanları, insanları küçə yürüşünə, mitinqə səsləyənləri xəvaric, yəni dindən çıxmış adlandırırdı. Həmçinin onların bu çirkin əməllərinə görə ciddi cəzalandırırdı. Bu baxımdan İslam dinində sülh, əmin-amanlıq, sakitlik əsas hesab olunur. Qarışıqlığa yol vermək böyük günah və haram hesab edilir. Məhz toydan sonra belə yürüşlərin təşkili də yol verilməzdir, İslam dininə ziddir və belə əməllərə yol verməlirinə heç zaman heç kim haqq qazandıra bilməz".

■ **Məsələnin hüquqi tərəflərinə gəldikdə isə, vəkil Turan Abdullazadənin sözlərinə görə, Azərbaycan Respublikasının Konstitusiyasına əsasən irqi, milli, dini, sosial və hər hansı digər meyara əsaslanan ədavət və düşmənçilik oyadan təşviqata və təbliğata yol verilmir.** Dini etiqad və əqidə hüquq pozuntusuna bəraət qazandırmır. Hər kəsin başqaları ilə birlikdə müvafiq dövlət orqanlarını qabaqcadan xəbərdar etməklə, ictimai qaydanı və ya ictimai əxlaqı pozmamaq şərtilə, dinc, silahsız yığışmaq, yığıncaqlar, mitinqlər, nümayişlər, küçə yürüşləri keçirmək, piketlər düzəltmək hüququ vardır:

"Cinayət Məcəlləsinə əsasən dini məzhəbləri yaymaq və dini ayinlərin icrası adı altında fəaliyyət göstərən və bu fəaliyyətlə ictimai asayişi pozan, yaxud vətəndaşların sağlamlığına zərər vuran və ya formasından asılı olmayaraq vətəndaşların hüquqlarını pozan, habelə vətəndaşları qanunla müəyyən edilmiş vəzifələrini yerinə yetirməkdən yayındıran qrup təşkil etmə, ona rəhbərlik etmə və ya belə qrupda iştirak etmə - yeddi min manatdan doqquz min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. "Dini etiqad azadlığı" haqqında Azərbaycan Resublikası Qanununa əsasən dini etiqad azadlığı yalnız qanunda nəzərdə tutulan və demokratik cəmiyyətdə zəruri olan hallarda ictimai təhlükəsizlik mənafeləri üçün, ictimai qaydanın təmin edilməsi, sağlamlığın və ya mənəviyyatın və ya digər şəxslərin hüquq və azadlıqlarının qorunması üçün məhdudlaşdırıla bilər. Dini ekstremizmin təbliğinə, həmçinin siyasi məqsədlər üçün dinlərarası və dinlərdaxili fərqlərin istifadəsinə yönəldilmiş fəaliyyət qadağandır".

Ekspert paytaxtda toy edən bir qrup vətəndaşın bunun ardınca dini bayraqlarla yürüş təşkil etməsini qanunvericiliyə zidd olduğunu qətiyyətlə vurğuladı. Qanunvericiliyin tələbinə əsasən kütləvi dini ibadət, ayin və mərasimlər (dəfn, yas, iftar, kəbinkəsmə, mövlud və ehsan mərasimləri istisna olmaqla) dini ibadət yerlərində və ziyarətgahlarda keçirilir:

"Üstəlik, dini tədbirlər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın

*"Qanunvericiliyin tələbinə əsasən kütləvi dini ibadət, ayin və mərasimlər (dəfn, yas, iftar, kəbinkəsmə, mövlud və ehsan mərasimləri istisna olmaqla) dini ibadət yerlərində və ziyarətgahlarda keçirilir"*

(qurumun) razılığı ilə təşkil oluna bilər. Bundan əlavə, koronavirus infeksiyasının artdığı bir dövrdə bu cür dini toplanışlar insanların sağlamlığını təhlükə altına alaraq karantin rejiminin pozulmasına səbəb olur. Məlum məsələdir ki, bu cür toplanışlarda onların dini çağırışlarına başqaları da qoşula və ictimai asayişi poza bilərlər. Hüququn əsas prinsiplərindən biri də odur ki, başqalarının hüquqlarının başlandığı yerdə sənin hüquqların bitir. Konstitusiyamıza əsasən dini mərasimlərin yerinə yetirilməsi, ictimai qaydanı pozmursa və ya ictimai əxlaqa zidd deyildirsə, sərbəstdir. Məlum məsələdir ki, qeyd etdiyiniz hadisədə ictimai qayda pozulmuşdur. Üstəlik, ən mühüm məsələ də ondan ibarətdir ki, bizim dini inanclarımıza əsasən etdiyim hərəkətlər cəmiyyətin başqa fərdlərini narahat etməməli və onları diskomfort hiss etdirməməlidir".

✍ **Banu**

## Şikayət

***44 günlük Vətən Müharibəsindən bir il ötür. Bir il ərzində qapısı bir dəfə də döyülməyən qazimiz var. Üstəlik o, əlillik dərəcəsi ala bilmir, buna baxmayaraq susur. Əslində, Qarabağ uğrunda döyüşən əsgərlərin igidliyindən ağızdolusu danışan yerli idarəedici orqanların nümayəndələri, özünü millətin vəkili adlandıranlar həmin o qazidən niyə xəbərsiz qalıb, maraqlı olan budur. Çox təəssüf doğuran bir mənzərədir.***



Hafta.az olaraq apardığımız araşdırmalar zamanı məlum oldu ki, həmin qazi Lerik rayonunun Verə Küsəkəran kəndində yaşayan 20 yaşlı, bir ildir yataq xəstəsi olan Nizami Hüseynovdur.

Qeyd edək ki, Nizami Hüseynov "Şücaətə görə" medalı ilə təltif olunub.

2001-ci il təvəllüdlü Nizami Hüseynov 2019-cu il iyunun 3-də həqiqi hərbi xidmətə yollanıb. Murov, Suqovuşan istiqamətində gedən döyüşlərdə iştirak edib, sentyabrın 30-da

Məsələ ilə bağlı Lerikin deputatı İqbal Məmmədovla bir neçə dəfə telefon əlaqəsi saxlamağa çalışdıq. Amma nə özü, nə də köməkçisi cavab vermədi.

■ **Lerik Rayon İcra Hakimiyyətinin sədr müavini Cəlil Baxşəliyev telefon zəngimizə cavab verdi. Onun da bu qazi haqqında çox da məlumatlı olmadığını gördük.**

Cəlil Baxşəliyev 1 il ərzində Nizami Hüseynova baş çəkə bilməmələrinin səbəbini

# Yataq xəstəsi olan qazimizin problemləri ilə maraqlanan yoxdur

Suqovuşanda mərmi partlaması nəticəsində ağır xəsarət alıb. Ona ilk tibbi yardım döyüş meydanında göstərildikdən sonra Gəncə xəstəxanasına aparılıb. Sol bud sümüyünün eksternal fiksatorla fiksasiyası cərrahi əməliyyatı icra edilib. 4-5 gün qaldıqdan sonra Yeni Klinikaya köçürülüb. Orada bir neçə əməliyyar keçirib. Ona oturaq sinirin zədəsi stasionar cərrahi əməliyyatı icra olunub. Düşük pəncə, sol aşağı ətrafda qısalıq diaqnozu verilib.

Əslində, Nizami Hüseynov faktiki parezdir, heç bir hərəkət də bilmir. 1 ayağında 5 sm qısalma var. Ayağına aparat qoyulub, sonra vaxtından əvvəl çıxarılıb. Ayaq yenidən sınıb. İkinci dəfə möl qoyublar. Amma həkim komissiyası yazır ki, müşahidəçiyə ehtiyac yoxdur, özü sərbəst gəzə bilər.

Qeyd edək ki, Nizami Hüseynov haqqında bu məlumatları rayonun həkimlərindən biri məlumat verib.

Onu da öyrəndik ki, Nizaminin ailəsi 3 nəfərdən ibarətdir. Atası 1-ci Qarabağ döyüşlərinin iştirakçısı olub, sonra aldığı xəsarətlərdən, ürək ağrılarından rəhmətə gedib. Ailədə ən böyükləri Nizami Hüseynovdur və o da yataq xəstəsi. Ailə Nizaminin kiçik qardaşının aldığı 200 manatlıq uşaq pulu ilə dolanır. Nizamiyə anası baxır. Ana özü də heç yerdə işləmir. Bir sözlə, qazinin ailəsində həyat çox ağırdır...

Nizami nə deputatını, nə də yaşadığı rayonun icra başçısını tanımır. Əgər o adamalar Vətən uğrunda sağlığını itirən qazimizə baş çəksəydilər, yəqin ki, onları tanyardı.

belə izah etdi ki, rayonda 118 qazi var, hamısını diqqətdə saxlaya bilməzlər. O, qazinin özünün deyil, anasının icra hakimiyyətinə gəldiyini dedi. Sonradan C.Baxşəliyev bildirdi ki, Nizami Hüseynovu 48 mənzilli yaşayış binasında 2 otaqlı evlə təmin ediblər. Aprel ayında qospitalda yatanda rayon icra hakimiyyəti tərəfindən ona 1 dəfə 200 manat yardım olunub. Onun müalicəsinin bütün xərclərini Med-Era hospitalında YAŞAT fondu aparıb. Amma qazi özü heç vaxt ora müraciət eləməyib.

Qazimiz Nizami Hüseynov bizə dedi ki, YAŞAT fondu onun xəstəxana xərclərini yalnız xəstəxanada əməliyyat olunan zaman ödəyib. Xəstəxanadan çıxandan sonra onun müalicəsi ilə heç kəs məşğul deyil. Deyir ki, əlilliyin alınması ilə bağlı sənədlərini versələr də, bu gün-sabah deyib uzadırlar.

C.Baxşəliyev bizə bildirdi ki, qazi hələ 10 gün olar kəndə gəlib, artıq icra nümayəndəliyi maksimum onlardan nə asılıdırsa, qaziyə köməklik göstərəcək...

...son olaraq Nizami Hüseynovdan istəklərini soruşduq. O isə bizə "Bu gün Qubadlının işğaldan azad olunduğu gündür. Allah şəhidlərimizə rəhmət eləsin. Bu gün mənim əsgər yoldaşım İmamverdiyev Elmirin Şəhid olduğu gündür", - dedi. Qazimiz öz döyüşkən ruhunu yataqda xəstəlikdən, maddi təminatsızlıqdan əziyyət çəkdiyi belə bir zamanda da demədi. Sadəcə "Allah Şəhidlərimizə rəhmət eləsin", - dedi.

✍ **Tahirə**

# Rayonlarda ev təsərrüfatları ləğv edilir



***Son zamanlar rayonlarda fərdi təsərrüfat subyektlərinin mal-qaralarını, yaxud da toyuq-cücələrini "əldən çıxarmağa" çalışmaqları halları bir xeyli artıb. Buna səbəb isə yem və saxlama xərclərinin artması göstərilir.***

Təsərrüfat sahibləri aşağı gəlirin artan xərcləri ödəmədiyini, çıxış yolunu isə heyvanları satmaqda gördüklərini deyirlər. Bəs görəsən, ölkədə heyvan qidalarının bahalaşmasına əsas səbəb nədir? İdxal amili buna nə cür təsir edir? Hansı məhsul nə qədər bahalaşıb?

■ **Məsələ ilə bağlı hafta.az-a danışan iqtisadçı ekspert Xalid Kərimli söylədi ki, son zamanlar tək heyvan yemlərində yox, demək olar bütün istiqamətlərdə ciddi inflyasiya müşahidə olunur.** Hazırda dənli bitkilər 41, ərzaq məhsulları isə 33 faiz bahalaşıb: "Nümunə üçün deyim ki, ərzaq məhsullarının qlobal qiymət indeksi son bir ildə 33% bahalaşıb. Dənli bitkilər, yəni heyvan qidaları son bir ildə 41% bahalaşıb. Qlobal miqyasda belə bahalaşmaya əsas səbəb pandemiya, tələbatın qeyri-proporsional paylanması, istehsalın azalması və havaların quraq keçməsidir. Dənli bitkilər bazarında qiymətlərin bahalaşması ümumilikdə pandemiyanın fəsadlarındandır.

*"İdxaldan asılılıqla əlaqədər infilyasiya ölkəyə daxil olur"*

Heyvan yemləri bazarı da bundan ayrı deyil. Burada da eyni səbəbdən qiymət artımı müşahidə olunur. Həmçinin daşınma xərcləri də kəskin şəkildə bahalaşıb". Ekspert, həmçinin qiymət artımına əsas səbəb kimi idxal amilini göstərir. O hesab edir ki, okean üzərindən daşınmalar məhsulların maya dəyərinə çox ciddi təsir göstərir:

"Hazırda dünyada daşınma xərcləri 4-5 dəfə bahalaşıb. Okean üzərindən daşınmalar məhsulların maya dəyərinə çox ciddi təsir göstərir. Daha sonra əsas amillərdən biri də dövriyyəyə çoxlu pul buraxılmasıdır. Hazırda Amerika, Avropa, Yaponiya dövriyyəyə çoxlu pul buraxaraq onun dəyərini aşağı salırlar. Nəticədə infilyasiyanı artırırlar. Əsas səbəblər sırf Azərbaycanla bağlı məsələlər deyil. İdxaldan asılılıqla əlaqədər infilyasiya ölkəyə daxil olur. Buna başqa alternativ yoxdur. Azərbaycan kiçik ölkədir və o dünya ticarətinə inteqrasiya olunmaldır ki, tələbatını ödəyə bilsin".

Qeyd edək ki, bu ilin yanvar-sentyabr aylarında Azərbaycanda 7 342,1 mln. manat dəyərində kənd təsərrüfatı məhsulu istehsal olunub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 5% çoxdur.

✍ **Banu**

# "Sizinlə keçirdiyim illər yaddaşımda və ürəyimdə qalacaq"

***"Azərbaycandakı diplomatik missiyam oktyabrın sonunda başa çatır və yola düşmə ərəfəsində hisslərimi ifadə etmək, vidalaşmaq üçün uyğun söz tapmaq mənim üçün çətindir. Sizinlə keçirdiyim iki il həmişəlik yaddaşımda və ürəyimdə qalacaq". Bu sözləri Əlcəzairin ölkəmizdəki səfiri xanım Səlimə Əbdülhaqqın Hafta.az-a göndərdiyi vida məktubunda deyilir. Xanım diplomat qeyd edir ki, o, Əlcəzair hakimiyyətinin 2015-ci ildən artıq Bakıda fəaliyyət göstərməyə başlayan diplomatik nümayəndəliyinin səviyyəsini yüksəltmək, ölkələrimiz və xalqlarımız arasında münasibətləri daha da gücləndirməsi üçün Azərbaycanda səfirlik açmaq məqsədilə təyin olunub və qarşıya qoyulan məqsədə çatılıb. Budur, hazırda Əlcəzair Səfirliyi Azərbaycanda akkreditə olunmuş 72 diplomatik nümayəndəlikdən biridir.***

"Mən koronavirus pandemiyasının qoyduğu məhdudiyyətləri dəf etməyə həvəslənirən bu "Odlar diyarı"nda Əlcəzairin ilk səfiri olmaq şərəfinə nail oldum. Səfirlik ofisinin və İqamətgahın seçilməsinə Bakının infrastrukturunun keyfiyyəti çox kömək etdi. Şəhidlərinin müqavimət və fədakarlığı rəmzi olan Əlcəzair bayrağını səfirlikdə dalğalandırmaq üçün Bakının məşhur bulvarını və Xəzərin gözəl buxtasını seçdim", - deyən xanım Əbdülhaq əlavə edib ki, koronavirusla bağlı məhdudiyyətlərə baxmayaraq, səfirlik dahi Azərbaycan şairi Nizami Gəncəvinin 880 illik yubileyi ilə bağlı bir sıra tədbirlər, müsahibələr və vizio-konfrans keçirib. Diplomat qeyd edir ki, Azərbaycan ədəbiyyatının bu böyük siması onu filosof, mütəfəkkir, uzaqgörən və bu gün beynəlxalq humanitar hüquq adlandırdığımız hər şeyin atası sayılan Əmir Abdelkaderi xatırlamağa ruhlandırıb.

"Mən sizin ölkənizi və xalqınızı tanıdım, aşkar etdim ki, bizim çoxlu ortaq cəhətlərimiz var. Bunlar xüsusən də suverenliyimizə, müstəqilliyimizə və ərazi bütövlüyümüzə bağlılığımız, sülh və inkişafa can atmağımızdır. İqtisadiyyatımızın şaxələndirilməsi və onun karbohidrogenlərdən asılılığının azaldılması ilə bağlı eyni vəzifəmiz var. Təbii sərvətlərimizə və xalqlarımızın əzmkarlığına arxalanaraq çağırışların öhdəsindən gəlmək üçün böyük potensialımızın fərqindəyik. Mən əməkdaşlıq potensialını araşdırdım və bir neçə sahədə onların saysız-hesabsız olduğunu müəyyən etdim. Əlcəzair və Bakıda bəzi proqramlara start verilib, təyinatlar olub. Bütün bunlar mənim xələfimin də gündəmində olacaq", - səfir xanım Səlimə Əbdülhaq söyləyib.

**Xanım diplomat yazır:**

"Missiyam zamanı mənə göstərdiyiniz səmimi qarşılama və hərtərəfli köməyiniz olmasaydı, missiyamı yerinə yetirməkdə çətinlik çəkərdim. Qurumlar və dövlət səlahiyyətliləri, yni zamanda bütün xalq və vətəndaş cəmiyyəti qapılarını üzümə açdılar".

"Əlcəzairli, müqavimətli və mübariz millətin nəvəsi, xüsusilə də bir xanım olaraq mənə çox böyük hörmət göstərildi. Mən onların çoxşaxəli, müəyyən aspektlərdə Azərbaycan mədəniyyətinə çox yaxın olan mədəniyyətimizə maraq göstərmələrini xüsusi qiymətləndirdim. Ölkəmi bütün ölçüləri ilə - tarixi, mədəni, iqtisadi və bilik dünyası ilə tanımaq üçün birbaşa əlaqəyə üstünlük verən və onun köşələrinə çıxış imkanı verən mətbuata təşəkkürümü bildiririəm. ADA, Xəzər, UFAS Universiteti və digər beyin mərkəzləri, o cümlədən Nizami Gəncəvi Beynəlxalq Mərkəzi, Müqayisəli Ədəbiyyat Assosiasiyası və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin və digərlərinin rəhbərləri mənimlə görüş keçirərək və fikir və məlumat mübadiləsi apardılar. Bu çoxşaxəli təmaslar mənə qardaş və qonaqpərvər xalqı dərindən tanımağı öyrətdi, onların tarixində böyük bir anı yaşamaq şərəfinə nail oldum", - vurğulayan səfir xanım Səlim Əbdülhaq əlavə edir ki, o, şəxsi yükləri arasında Azərbaycanın rəngləri ilə dolu virtual çemodan da aparır. O, həm də siyasi, sosial, iqtisadi və mədəni əlaqələrimizi daha da dərinləşdirmək üçün öz kiçik əməyini sərf etdiyinə inanaraq Bakıdan ayrılır. Diplomat qeyd edir ki, zaman keçdikcə dövlət başçılarımızın xüsusi səyləri, hökumətlərimizin və xalqlarımızın birgə əməkləri nəticəsində əlaqələrimiz daha da güclənəcək.

✍ **Vüsal Tağıbəyli**

# Pizza - ən təhlükəsizi evdə hazırlanandır

## Menyu

***"Menyu" rubrikasının bugünkü mövzusu italyanların dünya miqyasında çox sevilən və əvəzsiz yeməyi olan pizzaya həsr edilib. "Pizza" termini latın dilindən tərcümədə əzmək və üyütmək mənasını verən "pinsere" sözündən götürülmüşdür. Mozzarella pendiri və pomidorun qarışığı olan pizza yüzillər boyu kasıb italyan xalqının vazkeçilməz dadı olaraq istehlak edilib. Onun dünya şöhrətinin hekayəsi 1889-cu ildə Kraliça Margherita mozzarella pendiri, pomidor və reyhan ilə bəzədilmiş pizzanın dadına baxdıqdan sonra başladı.***



Bu tarixə qədər kasıbların yediyi pizza kraliçanın ona təklif edilən pizzanı bəyənməsi və aşpaz Espositoya təşəkkür məktubu göndərməsi ilə zənginlərin süfrəsinə girməyə başlayıb. Nəzərinizə çatdıraq ki, bu məktub indi də "Pizzeria Brandi" adlanan pizza mağazasının vitrinində nümayiş etdirilir.

■ **Qida mütəxəssisi Ağa Salamov pizza ilə bağlı hafta.az-a məlumat verərkən bildirdi ki, pizzaların evdə hazırlanması, yaxud restoranlarda yeyilməsi evə sifariş edilməsindən faydalıdır:** "Buna səbəb pizzalar hazırlanan zaman üzərlərinə pendir vurulur. Həmin pendirlərin də ərimək kimi bir xüsusiyyətləri var. Elə kəsən zaman da pendirin dartılmasını görürük. Bunu evə sifariş çatana qədər bərkiyir. Bu da yerində yeyilən pizzadan dadsız olur. Bundan başqa, pizza alan zaman mütləq şəkildə hazırlandığı yerə fikir vermək lazımdır. Bəzən hazırlanmasında istifadə olunan sosis və digər məhsullar köhnə ola bilir. Ona görə də güvənilən bir yerdən sifariş edilsə daha yaxşıdır. Ən etibarlısı isə yerində istehlakıdır". Bütün hallarda mütəxəssis ən yaxşı üsulun evdə hazırlanan olduğunu bildirdi:



**Ağa Salamov,**
qida mütəxəssisi

> *"Pizza alan zaman mütləq şəkildə hazırlandığı yerə fikir vermək lazımdır*

"Təbii ki, pizzanın evdə hazırlanması digər sadaladığım yolların daha üstünüdür. Xüsusilə də uşaqlar üçün ev pizzası sağlamlıq baxımından çox faydalıdır".

Ev şəraitində pizza hazırlamaq üçün lazım olan məhsullar:

**Un - 1 kq**
**Duru yağ - 80-90 qr**
**Maya - 10 qr**
**Su - aparana qədər**

Öncə xəmir hazırlanır. Ardınca təxmini 1 saata qədər dinləndirilir. Daha sonra xəmirdən 100 qramlıq kündələr hazırlanır.

**Tamat sousu üçün:**

Pomidor soğan və yağla qovrulur, üzərinə az miqdarda su əlavə olunub qaynamağa qoyulur. Suyun əvəzinə yaxşı olardı ki, tomat şirəsindən istifadə edilsin. Qaynayana yaxın blenderdən keçirilir və qaymaq əlavə edilir. Ardınca duz və istiot qatılaraq xəmirin üzərinə yayılır.

Xəmirin üzərinə zövqə görə, toyuq, sosis, müxtəlif tərəvəzlər, qiymə, yaxud göbələk düzülə bilər. Ən son mərhələdə isə holland pendiri vurularaq sobaya verilir. 200 dərəcədə, 10 dəqiqə sonra pizza ən sağlam şəkildə istehlakçıların yeməsi üçün hazır olur.

Sonda A.Salamov bir məqamı xüsusi vurğuladı. Bu da əksər hallarda "termoboks"ların yuyulmaması məsələsidir: "Əslində, onlar gün ərzində hər çatdırılmadan sonra dezinfeksiya olunmalıdır. Təəssüflər olsun ki, yolboyu toz və çirki üzərinə çəkən termobokslar təmizlənmədən yemək daşınması üçün istifadə edilir".

✍ **Banu**

## HƏFTƏ REYTİNQ

### Həftənin AÇILIŞI



Xəbər verdiyimiz kimi, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycana rəsmi səfər edib. Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Füzuli Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülüb. Ərdoğanı hava limanında Azərbaycan Prezidenti İlham Əliyev qarşılayıb. İlham Əliyev Ərdoğanla Füzuli aeroportunun lentini kəsib. "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti Cahangir Əsgərov dövlət başçılarına Füzuli Beynəlxalq Hava Limanının rəmzi açarlarını təqdim edib.

### Həftənin BORCU



Ermənistanın dövlət borcu artaraq 9 milyard dolları ötüb. Hafta.az "Joxovurd" qəzetinə istinadən xəbər verir ki, sentyabrın 30-na olan məlumata əsasən, Ermənistanın dövlət borcu 9 milyard 31 milyon dollar və yaxud 4 trilyon 369 milyard dram təşkil edib. Bildirilir ki, avqust ayı ilə müqayisədə dövlət borcu 86 milyon dollar artıb. Bu borc il ərzində isə 1 milyard 184 milyon dollara yüksəlib. Həmçinin qeyd olunur ki, dövlət borcunun böyük hissəsini xarici dövlət borcu təşkil edir ki, bu da 8 milyard 564 milyon dollardır.

### Həftənin MƏRHUMU



Xalq artisti Canəli Əkbərov bu gün vəfat edib. Bu barədə onun oğlu Sabir Əkbərov məlumat verib. Qeyd edək ki, xanəndə iki il əvvəl beyin insultu keçirmişdi. Bir neçə gün öncə yenidən vəziyyəti pisləşmişdi. Canəli Əkbərov 1940-cı ildə Lənkəran rayonunun Tükəvilə kəndində anadan olub.

### Həftənin XƏSTƏSİ



Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev bu gündən palataya köçürülməlidir. Hafta.az xəbər verir ki, bunu Hafiz Hacıyevin oğlu deyib. O bildirib ki, atasının vəziyyəti yaxşıdır: "Həkimlər süni tənəffüs aparatından ayırıblar. Daha da yaxşı olacağına ümid edirik. Ağciyərində bir az buzlaşma olduğu üçün süni nəfəs aparatına qoşulmuşdu. Amma artıq yaxşıdır. Həkimlər bu həftənin axırına xəstəxanadan çıxara biləcəyimizi deyirlər". Qeyd edək ki, koronavirusa yoluxmuş H. Hacıyev oktyabrın 17-dən Mərkəzi Gömrük Xəstəxanasının reanimasiya şöbəsində müalicə alır.

### Həftənin QATİLİ



ABŞ-da film çəkilişi zamanı bədbəxt hadisə baş verib. Buna döyüş səhnəsi çəkilən zaman silahların boş patronlar əvəzinə, səhvən döyüş qabiliyyətli güllələrlə doldurulması səbəb olub. Döyüş səhnəsinin çəkilişi zamanı güllələrdən biri filmin operatoru, digəri isə rejissoruna dəyib. Rejissor körpücük sümüyündən yaralanıb, 42 yaşlı operator Qalina Hatçins isə çatdırıldığı xəstəxanada ölüb. Məlumata görə, aktyor Alek Bolduin filmin çəkilişində iştirak edib və atəşi də məhz o açıb.

### Həftənin İTKİNİ



Bir neçə gündür itkin hesab edilən RSFSR Əməkdar artisti Svetlana Svetliçnaya Moskvada sağ-salamat tapılıb. Bu barədə "İzveztiya" nəşri xəbər verir. Məlumata görə, aktrisanın səhhəti qaydasındadır. O, hüquq-mühafizə orqanları əməkdaşları tərəfindən Eyzenşteyn küçəsində yerləşən kinostudiyada televiziya şousunun çəkilişi zamanı tapılıb. S. Svetliçnayanın dostu İvan Nikolayev "RİA Novosti"yə açıqlamasında bildirib ki, aktrisa qohumlarına yaxın olan yerə köçüb və mətbuatla əlaqə qurmaq istəmir.

### Həftənin ATASI



Əfqanıstanda valideynlər yeni doğulan qızlarını naməlum şəxsə 500 dollar qarşılığında satıblar. Bu barədə "Bi-bi-si" məlumat yayıb. Onlar bunu ailəni aclıqdan xilas etmək üçün etdiklərini deyib. Alıcı bildirib ki, o, yeni doğulan qız uşağı alıb tərbiyələndirmək, gələcəkdə isə öz oğlu ilə evləndirmək istəyir. Bunun qarşılığında 250 dollar avans belə verib. Valideynlər pulun qalanını qızları yeriməyə başlayanda alacaqlar və uşağı həmin şəxsə təhvil verəcəklər. "Digər uşaqlarım acından ölürdü. Ona görə qızımı satmalı olduq. Əlbəttə, kədərlənirəm. O, mənim körpəmdir. Ondan ayrılmaq istəməzdim", - deyə qızın anası danışıb. Uşağın atası ailəni zibil yığmaqla dolandırdığını və başqa seçiminin qalmadığını deyib.

✍ *Azad Əliyev*

## "Azercell"dən yeni Wi-Fi kampaniyası! Ⓡ

***Yüksəksürətli interneti hər kəs üçün əlçatan edən "Azercell Telekom" yeni Wi-Fi cihazının satışına start verir. Kampaniya çərçivəsində son model Wi-Fi cihazı ilə birgə 1 aylıq 50GB internet cəmi 129 AZN-ə təqdim olunur.***




Həm 4G, həm də 3G şəbəkələrini dəstəkləyən bu cihazın daha bir üstünlüyü paylaşılan yüksəksürətli internetə eyni anda 32-yə qədər cihazın qoşula bilməsidir. Azercell Wi-Fi modemi yalnız smartfonları deyil, hətta kompüter, noutbuk, planşet, printer və televizoru da şəbəkəyə qoşmaq üçün kifayət qədər universaldır. Qeyd edək ki, yeni 4G Wi-Fi modem yalnız ev və ya ofisdə işləmək üçün nəzərdə tutulmayıb. İstirahət zamanı bu kiçik ölçülü və yüngül cihazı istənilən yerə daşıyıb internetdən istifadə etmək olar. Geniş əhatə dairəsi 15-20 metrlik radiusda olan quruğuları stabil internetlə təmin etməyə imkan verdiyindən, daim cihazın yanında qalmağa ehtiyac yoxdur. Digər tərəfdən, yeni Wi-Fi modeminin müasir görünüşü istənilən evə, və ya ofisə ideal dizayn əlavəsi ola bilər.

Kampaniyaya dərhal qoşulub yüksəksürətli internetdən yararlanmaq üçün ən yaxın Azercell satış məntəqəsinə müraciət etmək kifayətdir. Kampaniya çərçivəsində hər bir Azercell Wi-Fi Modemi ilə birgə 1 ədəd "Data tarifi"ndə olan nömrə və 50GB-lıq internet paketi təqdim olunur. Azercell-in yeni Wi-Fi kampaniyasına qoşul və yüksəksürətli internet əldə et!

Daha ətraflı məlumat üçün news@mcs.az <mailto:news-@mcs.az> ünvanına müraciət edə bilərsiniz Azərbaycanın mobil rabitə sənayesinin lideri və qeyri-neft sektorunun ən böyük vergi ödəyicisi və sərmayəçisi "Azercell Telekom" MMC 1996-cı ildə təsis edilib. Hazırda 5 milyon abunəçi Azercell-i seçir. Bazar payı 49%, ölkə ərazisi üzrə əhatə dairəsi: 94,25%, ölkə əhalisi üzrə əhatə dairəsi: 98,73% təşkil edir. Azercell ölkədə və MDB məkanında beynəlxalq "İnvestors İn People" İnsana Sərmayə Platin Sertifikatına layiq görülən yeganə şirkətdir. Eyni zamanda Beynəlxalq Biznes STEVIE Mükafatlarının "İlin kommunikasiya şirkəti" nominasiyası üzrə ən yüksək pillədə qərarlaşaraq Qızıl Stevie mükafatı alan ölkənin yeganə şirkətidir. Ölkəyə bir sıra yenilikləri ilk dəfə olaraq məhz Azercell gətirib: GSM texnologiyası, öncədən ödəmə sistemi, mobil internet xidmətləri, 24/7 Telefon Mərkəzi (*1111), 7/7 Ön Masa xidmətləri, Azercell Ekspres ofisləri, M2M, 4G , mobil və onlayn müştəri xidmətləri, sosial media üzərindən müştəri xidmətləri, mobil elektron imza xidməti "Asan İmza" və s. Mobil operator "Bakutel 2019" sərgisi çərçivəsində Azərbaycanda ilk dəfə pilot rejimdə 5G texnologiyasının sınaqlarını keçirib.

Azercell-in sürətlə böyüyən 4G şəbəkəsi Bakı və Abşeron da daxil olmaqla, ölkənin 60-a yaxın bölgəsini əhatə edir. Radio siqnalların şəbəkə keyfiyyətini ölçən və simsiz rabitənin əhatə dairəsi üzrə ixtisaslaşan beynəlxalq sistemlər tərəfindən aparılmış araşdırmaların nəticələrinə əsasən, Azercell-in 4G şəbəkəsi Azərbaycanın mobil operatorları arasında ən yüksək göstəricilər nümayiş etdirmişdir.



## Ⓡ "Nar" daha bir satış və xidmət mərkəzini yenilədi

**Satış və xidmət mərkəzlərini yeniləməklə müştərilərinə qabaqcıl alış-veriş və üstün xidmət təcrübəsi göstərən "Nar" daha bir mərkəzini yenilədi. Binəqədi rayonu, Süleyman Sani Axundov küçəsi 4 ünvanında ("Azadlıq" metostansiyasının yaxınlığı) yerləşən mağaza yeni konseptə uyğunlaşdırılaraq, müştərilərin ixtiyarına verildi.**

Qeyd edək ki, "Nar" mağazasında ziyarətçilərin müasir üslubda məlumat və xidmət alması təmin edilib. Mərkəzdə nömrə üzərində əməliyyatların aparılması, satışı da daxil olmaqla, müxtəlif növ xidmətlər təqdim edilir. Bundan başqa, yenilənmiş "Nar" mağazalarında mobil telefonların, cihazların və müxtəlif aksesuarların satışı da həyata keçirilir. Özünün müştəri yönümlülük və davamlı təkmilləşmə dəyərlərinə sadiq qalan "Nar", mağazalarında yeni konseptin tətbiqini bütün ölkə boyu davam etdirməkdədir.

Qeyd edək ki, mobil operator paytaxt və regionlar da daxil olmaqla 23 xidmət mərkəzini tamamilə yeni konsepsiyada müştərilərin ixtiyarına verib. Sizə yaxın olan satış və xidmət mərkəzlərinin ünvanları haqqında ətraflı məlumatı nar.az/map <file:///C:\Users\AydinI-A\AppData\Local\Microsoft\Windows\INetCache\Content.Outlook\3HB4-PCLT\nar.az\map> internet səhifəsindən öyrənə bilərsiniz.

## GÜNÜN FOTOSU



La Palma adasında vulkan püskürməsi...

> ❝

## Qubadlıda evimizi dağıdıb tövləyə çeviriblər

**İlham Şahmuradov,**
AMEA-nın müxbir üzvü

Oxuduğum orta məktəb, ümumiyyətlə, yerli-dibli dağıdılıb. Təkcə binaları deyil, bütün ağacları da məhv ediblər.

▸▸ Səh. 5

## STATİSTİKA



■ Dünyanın ən gənc valideynləri 1910-cu ildə Çində qeydə alınıb. Atanın 9, ananın 8 yaşı olub.

■ Dünyada ən çox uşağı olan şəxs Mərakeş Sultanı İsmayıldır. Onun 340 qızı, 548 oğlu var.

■ Statistikaya əsasən 3-4 yaşında uşaq il ərzində 900 sual verir.

■ Nigeriyada hər 11 doğuşdan 1-i əkizlərin dünyaya gəlməsi ilə nəticələnir. Yaponiyada bu göstərici 250-də 1-ə bərabərdir.



▸▸ Səh. 7

## Rayonlarda ev təsərrüfatları ləğv edilir